Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13
İYUN
2020-ci il
№ 94 (4225)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# ABŞ-ın DİN AZADLIĞI HESABATINDA «AZƏRBAYCAN YANLIŞI» - DİNİ FƏALLAR TƏQİB OLUNUR?...

■ səh. 6 ■

Azərbaycan XİN Ermənistana Qarabağdan üçüncü yol çəkilişi prosesinin əsl hədəflərini dünyaya göstərdi
■ səh. 3 ■

Avroparlament Ermənistanın işğal olunmuş torpaqlarda "nəqliyyat dəhlizi" siyasətini birmənalı ifşa etdi...
■ səh. 3 ■

Azərbaycan hərbi aviasiya sahəsində daha bir mühüm uğura imza atmağa hazırlaşır
■ səh. 10 ■

Avroparlamentdən Ermənistanın sərsəm yol ideyasına sərt diplomatik təpki... İrəvana hərbi xəbərdarlıq edildi
■ səh. 9 ■

Rusiya mediasında Paşinyanı gözləyən təhlükə barədə mesaj - güc orqanları koronavirusla mübarizədən imtina edə bilər
■ səh. 7 ■

Azərbaycan rəsmən OPEK üzvlüyünə dəvət aldı - nəyin hesabına və dövlətimiz nə qazanacaq...
■ səh. 6 ■

Həftəsonu növbəti qayda sərtləşməsində fermerlər üçün ayrıca güzəşt - aqrar sektor ziyan görməyəcək
■ səh. 15 ■

Bəzi rayonlarda əvvəlki qaydada yas mərasimləri kütləvi olaraq keçirilir - məsuliyyətsizliyə son veriləcəkmi...
■ səh. 15 ■




■ səh. 4-5 ■

## Koronavirusa yoluxduğunu gizlədənlər var - Azərbaycanda iş qrafiki dəyişə bilər...

*Operativ Qərargah çox maraqlı mətbuat konfransı keçirdi*

■ səh. 8 ■

Heydər Əliyev Azərbaycanın xilaskarıdır



■ səh. 5 ■

Naxçıvana əvvəlcə gündə cəmi iki reys - neqativ halların yayılmaq qorxusu hamını bürüyüb...








Qarabağdan Qafana çəkilən «üçüncü erməni yolunu» nəzarətdə saxlamaq imkanları - əsasən talan edilmiş təbii sərvətlər daşınacaq...
■ səh. 7 ■

Xarici ekspertlərdən Azərbaycanın gələcəyi üçün maraqlı pandemiya proqnozu - yoluxma davam etsə belə, sosial vəziyyət pisləşməyəcək
■ səh. 11 ■

Alimlərimizə, ziyalılarımıza, dövlət adamlarına, sənət xadimlərinə çağırış - «Facebook»da söyüş bir qəpik, təhqir edilməyən məmur qalmır, biz hara gedirik...
■ səh. 13 ■

Ermənilərin Kann Festivalına təqdim etdikləri kino Azərbaycanın işğal olunmuş ərazilərində çəkilib - icma rəhbərinin etirazından əlavə nə edə bilərik...
■ səh. 14 ■

### Şəmkirin Bayramlı kəndindən Prezidentə gələn məktubdan - "Həyatımı dəyişən xəbəri..."

**"Həyatımı dəyişən xəbəri və o günü xatırladıqca ilahi ədalətin var olduğuna bütün ruhumla təkrar-təkrar inanıram.**

Həyat qayğılarımın hökm sürdüyü və ömrümün eniş dövründə, üstəlik, bütün bunlardan əlavə, sağlamlığımın mənimlə savaşa qalxdığı bir vaxtda bir xəbər oxudum: Prezident mükafatçısı olmuşam. Həmin anı və o anın yaşatdığı hissləri ifadə etməyə nə mənim, nə də qələmimim gücü çatar. Təkcə onu deyim ki, o xəbər yaralarıma məlhəm, yorğunluqdan bükülən dizlərimə güc oldu, məni həyata bağladı, mübarizəyə səslədi". Bu fikirlər Şəmkir rayonunun Bayramlı kəndindən Prezident İlham Əliyevə məktub yazan I qrup əlilliyi olan şəxs, Prezident mükafatçısı Quliyeva Mətanət Elşən qızına məxsusdur. Bütün bunlara görə ölkə başçısına minnətdar olduğunu deyən Prezident mükafatçısının yazdığına görə, ölkə başçısının əlilliyi olan şəxslər üçün yaratdı çoxşaxəli imkanlar və bu istiqamətdə aparılan işlər bir daha imkan yaradır ki, bu qəbildən olan hər bir şəxs cəmiyyətdə öz yerini tutsun. "Ürəklə deyə bilərəm ki, bu gün mənim kimi gənclərin hədəflərinə doğru addımlaması üçün heç bir əngəl yoxdur. Bizim Sizə, Sizin qayğınıza hər zaman ehtiyacımız var"-deyə M.Quliyeva məktubunda qeyd edib.

*Baki-xeber.com*

### Prezidentin "Beşbarmaq dağı" qərarına ictimaiyyətdən böyük dəstək...

**"Mən Sizin "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında 2020-ci il 8 iyun tarixli Sərəncamınızı oxuyarkən qəlbim çox böyük fərəh və qürur hissi ilə doldu.**



Çünki nəinki Qafqazda və Azərbaycanda, habelə bütün dünyada çox nadir tarixi mədəniyyət nümunəsinə yeni həyat vermək ancaq Sizin kimi torpağını, tarixini sevən böyük şəxsiyyətlərə qismət olur… Beşbarmaq dağı çox böyük bir tariximizin möhtəşəm bir parçasıdır. Bu müqəddəs məkanda Musa və Xızır peyğəmbərlərin görüşdüyü yer, eramızın əvvəllərində tikilmiş Beşbarmaq səddi və saymaqla bitməyən digər tarixi abidələr yatır". Bu sözlər Bakının Nərimanov rayonundan Prezident İlham Əliyevə müraciət ünvanlayan tarix üzrə fəlsəfə doktoru Hacıyev Füzuli Mirzə oğluna məxsusdur. Tarixçi alim bu sərəncamın tarixə münasibətin möhtəşəm nümunəsi olduğunu qeyd etməklə yanaşı, buna görə ölkə başçısına minnətdarlığını bildirir.

*Baki-xeber.com*

# Prezident İlham Əliyev Şabranda yol tikintisinə 900 min manat ayırdı

**Prezident İlham Əliyev Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**



Sərəncamda qeyd edilir ki, Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 900,0 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Baş Prokurorluqda əsaslı struktur islahatları və yeni kadr təyinatları...



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sistemində də uğurla davam etdirilir.**

Dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi, işin səmərəliliyinin artırılması istiqamətində aparılan islahatlar bu sahədə dövlət siyasətinin həyata keçirilməsində çeviklik və dinamikliyin artmasına əlverişli imkanlar yaradıb.

Həmin islahatların davamı kimi, dövlət başçısının göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanıb, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan islahatların reallaşdırılması istiqamətində mühüm işlər görülür.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar formalaşdırılması məqsədilə Prezident cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilib.

Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılıb, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılıb, idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilib, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı Şəhər Prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılıb.

Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilib, bundan başqa, mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılıb.

Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, eləcə də prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə kadr korpusunun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Dövlət başçısının imzaladığı sərəncamla Heydər Məmmədov Baş prokurorun müavini, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Nemət Əvəzova yeni yaradılmış Baş Prokurorluğun İstintaq idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilib, Natiq Abdullayev Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Elşən Abbasov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi, Natiq Hüseynov Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi, Kamal Qılıcov Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinin rəisi, Murad Dadaşov Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi, Anar Məmmədov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, Sərdar İmanov isə Xətai rayon prokuroru vəzifələrinə təyin ediliblər.

Həmçinin, uzun illər Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri işləmiş Eldar Sultanov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinə təyin edilmiş, Günay Səlimzadəyə isə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri vəzifəsinin icrası həvalə edilmişdir.

Prokurorluq orqanlarında struktur islahatlarının həyata keçirilməsi və kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən üçüncü magistral yolun tikintisi ilə bağlı açıqlama yayıb. Açıqlamada yolun çəkilməsinin məqsədləri əks olunub.**

# Azərbaycan XİN Ermənistana Qarabağdan üçüncü yol çəkilişi prosesinin əsl hədəflərini dünyaya göstərdi




## *Məhəmməd Əsədullazadə: "Nazirliyin sərt bəyanatı göstərir ki, Ermənistan işğalçı siyasətində ciddi dəyişikliklər etmir"*

Qeyd olunub ki, Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanı ölkəmizin hazırda işğal altında olan Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən növbəti, üçüncü yolun çəkilişi işğalçı Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində həyata keçirilən qanunsuz fəaliyyətin bir hissəsidir: "Ermənistanın bu addımı təcavüzkar ölkənin Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalını möhkəmləndirmək məqsədi güdərək, həmçinin, bu ərazilərdə demoqrafik vəziyyətin məqsədyönlü şəkildə dəyişdirilməsi, qanunsuz məskunlaşdırmanın davam etdirilməsi, təbii sərvətlərin talan edilməsi, istismarı və daşınmasının həyata keçirilməsinə xidmət edə bilər.

Xarici İşlər Nazirliyinin hələ 2016-cı ildə hazırladığı "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatı, eləcə də 2019-cu ildə Azərbaycan XİN və "Azərkosmos" ASC tərəfindən hazırlanmış və Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qanunsuz fəaliyyətin peykdən çəkilmiş təsvirlərini əks etdirən hesabatlarda işğalçı ölkənin həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti təsdiq edən kifayət qədər dəlillər göstərilib. Bu dəlillər Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin işğal olunmuş hissəsi boyunca təbii sərvətlərin qeyri-qanuni daşınmasının həyata keçirildiyini və Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz istehsal olunmuş məhsulların, eləcə də təbii sərvətlərin həmin ərazilərdən beynəlxalq bazarlara daşınması üçün Ermənistanın nəqliyyat məntəqəsi rolunu oynadığını üzə çıxarır. Beləliklə də Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə üçüncü magistral yolu çəkməsinin başlıca səbəbi işğalçı ölkənin məhz qeyri-qanuni fəaliyyətini davam etdirərək işğalı möhkəmləndirmək və Azərbaycan ərazilərinin ilhaqını həyata keçirmək niyyətini aşkar şəkildə göstərir".

Xarici İşlər Nazirliyi məlum açıqlaması ilə, faktiki, Ermənistanın əsl məqsədini ifşa etdi.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, nazirliyin məlum açıqlaması kifayət qədər tutarlı şəkildə işğalçı ölkənin niyyətini ifşa edib: "Ermənistanın Qarabağa üçüncü yol çəkməsi əsasən bu ölkənin danışıqlarda hər hansı bir kompromisə getməyəcəyi mənasını verir. İşğalçı ölkə o qədər arxayınlaşıb ki, işğal olunmuş ərazilərdə, ilkin mərhələdə boşaldılacaq rayonlarda məskunlaşma siyasəti aparır. Avropa Parlamentinin məhz bu xüsusda Ermənistana qarşı sərt təpkisi və Azərbaycan XİN-in sərt bəyanatı göstərir ki, Ermənistan işğalçı siyasətində ciddi dəyişikliklər etmir. Reallıq ondan ibarətdir ki, Ermənistan manipulyasiya siyasəti aparır. Hesab edirəm ki, Ermənistan demoqrafik quruluşu işğal olunmuş ərazilərdə dəyişməklə ciddi şəkildə qarşıdurmanı təhrikləyir. Bu gedişlə Azərbaycan preventiv addımlar atmalı, Ermənistanın bu işğal və demoqrafik siyasətinin qarşısını almalıdır. Hazırkı proses çox təhlükəlidir. Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesinin qarşısını alsın və öz layihələrini Qarabağda reallaşdırsın. Təəssüf ki, biz çox vaxt bunun şahidi oluruq. Azərbaycanın səbri tükənməz deyil. Yeni aprel döyüşlərinin təkrarlanmasına ehtiyac var".

*"...ciddi şəkildə qarşıdurmanı təhrikləyir"*

***Vidadi ORDAHALLI***

**Bu günlərdə Avropa Parlamentinin Parlament Əməkdaşlıq Komitəsinin (PƏK) həmsədri xanım Marina Kalyurand, Azərbaycan və Ermənistan üzrə məruzəçilər xanım Jelyana Zovko və cənab Trayan Basesku birgə bəyanatla çıxış ediblər. Bu sənəd erməni baş nazirin Qafan-Hadrut avtomobil yolunun tikiləcəyi haqqında ictimaiyyətə açıqladığı layihənin sülhə və sabitliyə xidmət etmədiyini təsdiq edir.**

# Avroparlament Ermənistanın işğal olunmuş torpaqlarda "nəqliyyat dəhlizi" siyasətini birmənalı ifşa etdi...



## *Rəşad Bayramov: "Avropa Parlamenti qeyd edib ki, bu magistral yolun inşası Azərbaycanın səlahiyyətli orqanının razılığı olmadan həyata keçirildiyi üçün beynəlxalq hüquqa ziddir"*

Bəyanatla bağlı Milli Məclisin deputatı, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev açıqlamasında bildirib ki, Ermənistan baş nazirinin riyakar əməlləri və münaqişənin həllinə yox, daha da dərinləşməsinə xidmət edən açıqlamaları avropalı siyasətçilərin də nəzərindən yayınmayıb:"Keçən ilin sonunda Paşinyan çıxışlarından birində Qafan rayonunu işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarının ərazisindən keçməklə Dağlıq Qarabağ ərazisi ilə birləşdirəcək yeni avtomobil yolunun çəkiləcəyi barədə anons vermişdi. Avropa Parlamenti rəsmiləri Ermənistan hökuməti başçısının nəzərdə tutduğu layihənin təfərrüatlarını öyrəndikdən sonra anlamışlar ki, N.Paşinyanın irəli sürdüyü plan heç də Avropanın gözlədiyi kimi regional əməkdaşlığa, Şərq tərəfdaşlığı ölkələri arasında əlaqələrin yaxınlaşmasına deyil, əksinə, regionda mövcud olan münaqişənin daha da dərinləşməsinə xidmət edir.

Buna görə də AP çərçivəsində fəaliyyətləri bilavasitə Cənubi Qafqaz regionu ilə bağlı olan AP rəsmiləri - AP-nin Cənubi Qafqaz ölkələri üzrə PƏK həmsədri xanım M.Kalyurand, Azərbaycan üzrə məruzəçi xanım Jelyana Zovko və Ermənistan üzrə məruzəçi cənab Trayan Basesku birlikdə bəyanat verərək Paşinyanın növbəti təxribatına öz etirazlarını bildiriblər".

Azərbaycanın işğal edilmiş Qubadlı və Cəbrayıl rayonlarından keçməsi nəzərdə tutulan bu yolun tikintisi üçün torpaqların sahibindən -Azərbaycandan icazə alınmaması beynəlxalq qanunlara ziddir. Belə bir layihənin həyata keçirilməsi Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərinin işğalını daha da möhkəmləndirə bilər. Bununla Avroparlamentin Ermənistanın işğal olunmuş torpaqlarında "nəqliyyat dəhlizi" siyasətini birmənalı ifşa etdiyi qənaətinə gəlmək olarmı?

AMİP Siyasi Şurasının üzvü, politoloq Rəşad Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın işğalçı siyasətinin ifşa edilməsində Azərbaycanın atdığı addımlar bu gün öz effektiv nəticələrini verməkdədir:"Bu hal Avropa İttifaqı timsalında özünü yenidən qabarıq şəkildə büruzə verdi. Avropa bir daha açıq mətnlə Ermənistanın işğalçı olduğunu bildirərək, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə etdi.

Bütün bunlara əsas səbəb isə zəbt edilmiş ərazilərdə Ermənistanın daha bir yol çəkmək niyyətidir. Məsələ burasındadır ki, Ermənistandan Azərbaycanın işğal altındakı ərazilərinə üçüncü avtomagistralın çəkilişinə hazırlıq gedir. Bununla bağlı məsələ hələ ötən il gündəmə gətirilib. Bəyanatın əsas məqsədi Ermənistan və Dağlıq Qarabağı birləşdirən üçüncü avtomobil yolunun inşasının beynəlxalq hüquqa zidd olmasını bildirmək idi. Avropa Parlamenti qeyd edib ki, bu magistral yolun inşası Azərbaycanın səlahiyyətli orqanının razılığı olmadan həyata keçirildiyi üçün beynəlxalq hüquqa ziddir. Bu addım Ermənistanın işğalçı siyasətini bir daha təsdiqləyir. Eyni zamanda, Avropa Parlamenti təəssüf hissi ilə qeyd edir ki, Ermənistan bu cür fəaliyyəti ilə sülh və barışıq üçün tələb olunan mühiti pozur. Yekun olaraq, bəyanatda Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinə çağırış edilir. Bu bəyanatın Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Traian Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand tərəfindən imzalanması çox vacibdir. Bu onu göstərir ki, Dağlıq Qarabağla bağlı Avropa Parlamentinin ciddi mövqeyi var. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyəti və iflası oldu".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirusa yoluxduğunu gizlədənlər var - Azərbaycanda iş qrafiki dəyişə bilər...

*Operativ Qərargah çox maraqlı mətbuat konfransı keçirdi*

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. "14-16 iyun tarixlərində xüsusi karantin rejimində yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın icazə verdiyi dövlət və özəl qurumların əməkdaşları icaze.gov.az saytı vasitəsilə icazə ala biləcəklər".**

"Trend"in məlumatına görə, bunu brifinqdə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Ü.Mehdiyev bildirib ki, hazırda olan məlumata görə, 210 minə yaxın işçi üçün artıq icazə alınıb: "Fəaliyyətinə icazə verilən qurumlar maksimum az işçilərinə icazə almalıdırlar. İcazə alınan şəxslər həmin işə uyğun olmasa, onların adı icazə sistemindən çıxarılacaq və həmin şəxslərə cərimələr tətbiq ediləcək. Ona görə də icazə alan qurumlar diqqətli olmalıdırlar".

**İcazə sisteminin qeyri-formal məşğulluğun aradan qaldırılmasında böyük rolu...**

Ü.Mehdiyev qeyd edib ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq tətbiq edilən xüsusi karantin rejimində 70 minə yaxın yeni əmək müqaviləsinin imzalanmasının şahidi olduq. Ü.Mehdiyev bildirib ki, icazələr sistemi aprel ayının 3-dən tətbiq edilməyə başladı: "Həmin dövrdə 70 minə yaxın yeni əmək müqaviləsinin bağlanmasının şahidi olduq. Yeni təşkilatlar icazə almaq üçün icazə sistemində işçinin mütləq əmək və ya xidməti müqaviləsinin olmasını göstərməli idi. Bu cür məhdudiyyətlər onları məcbur edib ki, indiyə qədər qeyri-rəsmi işlətdiyi işçiləri rəsmiləşdirsinlər.

Bu mənada icazə sistemi qeyri-formal məşğulluğun xeyli dərəcədə aradan qaldırılmasına səbəb oldu".

**Fəaliyyətinə icazə verilən şəxslərə xəbərdarlıq...**

Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev isə deyib ki, sərt karantin rejimi ilə əlaqədar ötən həftə ilə müqayisədə bu həftə daha çox şəxsə icazə verilib. Onun sözlərinə görə, fəaliyyətinə icazə verilən şəxslərin avtomobilləri də qeydiyyatdan keçməlidir: "Həmin şəxslər öz avtomobilində ailə üzvlərini və ya digər şəxsi daşıya bilməz. O halda icazə verilə bilər ki, həmin sərnişinin də fəaliyyətinə icazə verilsin. İcazəsi olan şəxsə isə avtomobillə yalnız işə gedib-gəlməyə icazə verilir. Vətəndaşlardan xahiş olunur ki, sərt karantin qaydalarına riayət etsinlər".

**Xüsusi karantin rejimi tətbiq olunan rayonlardan keçərkən avtomobili saxlamaq qadağandır**

K.Əliyev deyib ki, fəaliyyətinə icazə verilən şəxslər sərt karantin elan olunan ərazilərdən öz maşınları ilə keçə biləcəklər. Onun sözlərinə görə, lakin fəaliyyətinə icazə verilməyən şəxslər gizli yollarla da keçməyə cəhd edərsə, məsuliyyətə cəlb olunacaqlar: "Sərt karantin rejimi tətbiq olunan rayonların kəndlərinə də giriş qadağandır. İsmayıllı rayonundan keçən magistral yollarda hərəkət olacaq. Başqa rayona gedən şəxslər bu yollardan keçə bilərlər. Lakin həmin ərazidə avtomobili saxlamaq qadağandır. Onsuz da həmin rayonların ərazisində heç bir obyekt işləməyəcək".

**Sərt karantin elan olunan ərazilərdə hərəkətə nəzarət DİN-ə həvalə olundu**

Sərt karantin elan olunan ərazilərdə hərəkətə nəzarətin Daxili İşlər Nazirliyinə həvalə olunduğunu deyən K.Əliyevin sözlərinə görə, iyunun 14-dən 16-dək sərt karantin elan olunan ərazilərdə mobil postlar da olacaq: "Yalnız fəaliyyətinə icazə verilən şəxslərin hərəkətinə icazə veriləcək. Digərlərindən xahiş edirik ki, karantin günlərində evlərini tərk etməsinlər. Vətəndaşlar yalnız təcili yardım xidmətinə ehtiyacı olanda və yaxın qohumlarının dəfn mərasiminə getmək üçün Daxili İşlər Nazirliyinin 102 xidmətinə məlumat verəndən sonra icazə əsasında evlərini tərk edə biləcəklər".

**Qanuni tələblərə məhəl qoymayanlar polis bölməsinə aparıla bilər**

K.Əliyev bildirib ki, sərt karantin qaydalarını pozan şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. Onun sözlərinə görə, polisin qanuni tələblərinə məhəl qoymayan şəxslər polis bölməsinə aparıla bilər: "Əgər şəxs başqa adama virus yoluxdurarsa və bu, təsdiqlənərsə, həmin şəxs cinayət məsuliyyətinə cəlb edilir. Karantin qaydalarını pozan şəxs əgər polisə müqavimət göstərirsə, qanunun tələblərinə uyğun olaraq, həmin şəxs yaxınlıqdakı polis bölməsinə aparılır. Həmin bölmədə qanunvericiliyin tələblərinə uyğun məsuliyyət növü tətbiq edilir".

**Yalnız blokun yaxınlığındakı qablara zibil atmaq üçün evdən çıxmaq olar**

K.Əliyev qeyd edib ki, insanlar yalnız yaşadığı blokun yaxınlığındakı qablara zibil atmaq üçün evdən çıxa bilərlər. Onun sözlərinə görə, əgər məişət tullantıları qabı uzaqdadırsa, oraya getməyə icazə verilmir: "Həmin şəxs 200-300 metrlik məsafədə zibil atmaq üçün yaşayış yerini tərk edə bilməz. Bu üsuldan suistifadə edənlər məsuliyyətə cəlb ediləcəklər. Yəni zibil atmaq adı ilə yaşayış yerindən uzaqdakı əraziyə getmək qadağandır. 2 gün çox müddət deyil. Həmin zibilləri evdə qapalı qabda da saxlamaq olar".

**Bəzi hallarda vətəndaş icazəli olduğunu deyir, amma...**

K.Əliyev bildirib ki, bəzi hallarda vətəndaş icazəli olduğunu deyir, amma portalda adı çıxmır.

*(Ardı 5-ci səh.)*




## Azərbaycanda 336 nəfər koronavirusa yoluxdu, 5 nəfər vəfat etdi, 183 nəfər sağaldı

**Azərbaycanda 336 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 183 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Qeyd edək ki, son sutkada koronavirusla bağlı 5 600 test aparılıb, ümumilikdə, yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayı 368 254 olub.

(Əvvəli 4-cü səh.)

Onun sözlərinə görə, ötən karantin günlərində həmin şəxslər inzibati məsuliyyətə cəlb ediliblər: "Polis həmin şəxsin yanında məlumatları portala daxil edib və ad çıxmadığı üçün inzibati xəta üzrə ona protokol yazıb. Polis heç bir halda qanunsuzluq etməyib. Ola bilər ki, vətəndaş evdən çıxandan 1 saat sonra adı portalda qeydiyyata alınıb. Bu ondan irəli gəlir ki, işəgötürən şəxs icazə portalına işçinin adını gec qeyd edir, amma işçini işə tez çağırır. Əgər bu prosesdə polisin günahından protokol səhvən yazılarsa, vətəndaş həmin faktı bizə təqdim etsin, biz o protokolu ləğv etməyə hazırıq".

**Rayonlara getmək istəyənlər postlardan geri qaytarılacaq**

Sərtləşdirilmiş karantin rejimindən əvvəl Bakı və Abşeron yarımadasında qeydiyyatda olan bəzi şəxslərin rayonlara getmək istədiklərini deyən K.Əliyevin sözlərinə görə, Bakı, Abşeron və ya Sumqayıt qeydiyyatı olan şəxslər karantin postlarından rayonlara buraxılmayacaqlar: "Karantin postları həmin şəxsləri geri qaytaracaq. Ona görə də heç kim digər rayonlara getməyə cəhd etməsin".

**Yol polisinin karantin rejiminin pozulması ilə bağlı yazdığı cərimələr...**

K.Əliyev bildirib ki, yol polisi mayın 13-dək karantin rejiminin pozulması ilə bağlı inzibati xəta barədə qərar verməyib. Onun sözlərinə görə, yol polisi tərəfindən həmin vaxta qədər protokollar üzrə də qərarlar çıxarılmayıb: "Bu qərarlar digər polis orqanlarının rəhbərləri və polis sahə müvəkkilləri tərəfindən çıxarılıb. Mayın 13-dən sonra bu səlahiyyət yol polisinə verildi və bu qərarlar yol polisi tərəfindən çıxarılmağa başlandı".

**Koronavirusa yoluxduğunu gizlədənlər...**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri, infeksionist Vasif Əliyev isə COVID-19-a yoluxaraq evdə özünü müalicə etdirən və bu xəstəliyini gizlədən kifayət qədər insanın olduğunu deyib. Onun sözlərinə görə, belə halları gizlətmək vəziyyətin daha da pisləşməsinə səbəb olur.

Əhaliyə xəstəliklə bağlı halları gizlətməməyi tövsiyə edən V.Əliyev əlavə edib ki, pandemiya dövründə ölkədə ikinci dəfə sərt karantin rejimi tətbiq olunacaq: "Həftəiçi günlərdə də insanlar lazımı təlimatlara əməl etməlidirlər. Əsas məqsəd odur ki, həftə sonlarında, ikigünlük də olsa, insanların təmasları azalsın".

**Teymur Mustafayev koronavirusdan dünyasını dəyişib**

V.Əliyev qeyd edib ki, Xalq artisti Teymur Mustafayev koronavirusdan dünyasını dəyişib. Onun sözlərinə görə, onun hər iki ağciyərinə ciddi sətəlcəm diaqnozu qoyulmuşdu. Xalq artisti ilə təmasda olan insanlara tövsiyə edilir ki, müraciət etsinlər. Xəstə yaxınlarının bunun əksini iddia etməsi ola bilər: "Biz koronavirusdan ölən şəxsin yaxınlarına dəfnlə bağlı məsləhətlərimizi bildirmişik, dəfn bu qaydalarla həyata keçirilməlidir".

**Xəstə sayının artması xəstəxanaların dolmasına və ölüm faktının çoxalmasına səbəb ola bilər**

Bir çox insanın ailə üzvlərindən koronavirus olmasını gizlətdiyini deyən V.Əliyevin sözlərinə görə, xəstə sayı artdıqca, xəstəxanalarda yer tapmaqda çətinliklər ola bilər. Bu zaman xəstə olan şəxslər evdə müalicə olunacaqlar: "Xəstə sayının artması xəstəxanaların dolmasına və ölüm sayının artmasına səbəb ola bilər. Ona görə də vətəndaşlarımız bu xəstəliyə ciddi yanaşmalı, lazımi qaydalara əməl etməlidirlər".

**Binaların qarşısında zibil atmaq üçün xüsusi konteynerlər olacaq**

Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev isə bildirib ki, paytaxtda binaların qarşısında zibil atmaq üçün xüsusi konteynerlər yerləşdiriləcək. Onun sözlərinə görə, artıq bu konteynerlərin quraşdırılması prosesinə başlanıb. Bu konteynerlər yalnız yaxınlığında zibil qabı olmayan binaların ətrafında qoyulacaq. Bununla əlaqədar artıq 1000 konteyner ayrılıb və bunlar yalnız iki gün üçün nəzərdə tutulub".

E.Həbibullayev əlavə edib ki, bundan öncəki sərt karantin rejimi dövründə insanlar çörəyi aşırı dərəcədə alıblar və sonrakı günlərdə onları zibil qabına atıblar: "Atılmış çörəkləri görəndə belə təəssürat yaranmışdı ki, insanlar sanki çörəyi ikigünlük deyil, 1 həftəlik alıblar".

E.Həbibullayev qeyd edib ki, Bakı şəhər İcra Hakimiyyətinin dezinfeksiya etdiyi ərazilər hər dəfə artırılır. Onun sözlərinə görə, bu işlərə 2 minə yaxın insan ayrılır: "İcra Hakimiyyəti nəzdində 11 min 415 bina mövcuddur və bu yaşayış yerlərinin blok, məhlələri və liftləri dezinfeksiya olunur. Bundan əlavə, həftə sonları genişmiqyaslı dezinfeksiya işləri aparılır ki, bu barədə mediada da məlumat verilir. Həmin ərazilər hər həftə artmaqda davam edir".

**Çimərliklərdə çətirlər arasında 4 metr məsafə...**

Çimərliklərdə çətirlər arasında 4 metr məsafə olacağını deyən E.Həbibullayevin sözlərinə görə, Bakıda 6 ictimai çimərlik artıq istifadəyə hazırdır: "Çimərliklərdə sakinlərin istirahəti üçün lazımi şərait yaradılıb. Vətəndaşlar çimərliklərdə qoyulmuş qaydalara ciddi yanaşmalı, məsuliyyətli olaraq sosial məsafə saxlamalıdırlar. Çətirlər arasında azı 4 metr məsafə olmalıdır və bununla bağlı sahibkarlarla müvafiq söhbətlər aparılıb".

**Bəzi təşkilatların işə başlama vaxtı dəyişə bilər**

E.Həbibullayev bildirib ki, sərt karantin günlərində bəzi təşkilatların işə başlama vaxtı dəyişə bilər. Onun sözlərinə görə, bu dəyişiklik günün pik saatlarında işə gəlmə zamanı ictimai nəqliyyatda sıxlığın aradan qaldırılması üçün nəzərdə tutulur: "Bu məsələ hazırda Operativ Qərargahda müzakirə olunmaqdadır. Ona görə də ola bilsin ki, müxtəlif təşkilatlar fərqli saatlarda işə başlasınlar".

Qeyd edək ki, sərt karantin rejimi Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərləri, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında tətbiq ediləcək.

# Naxçıvana əvvəlcə gündə cəmi iki reys - neqativ halların yayılmaq qorxusu hamını bürüyüb...

**İyunun 18-də saat 12:00-da Bakıdan Naxçıvana aviareys həyata keçiriləcək. Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə AZAL-ın vitse-prezidenti Eldar Hacıyev deyib.**


© M. Najberg

***Fazil Mustafa:** "Əgər vəsait yoxdursa, şəxsən mən öz maaşımdan 20 nəfərə bilet almağı öz öhdəmə götürürəm"*

***Samir Adıgözəlli:** "Əvvəlki qaydada reys sayları tam bərpa olunmalıdır"*

O bildirib ki, həmin gün saat 15:00-da ikinci aviareys yerinə yetiriləcək. Uçuşlar "Embraer 190" tipli təyyarələrlə baş tutacaq: "Təyyarələr 106 sərnişin tutumuna malik olsa da, 100 yer üçün bilet satılacaq. Buna səbəb isə, yeni qaydalara uyğun olaraq, uçuş zamanı hər hansı bir sərnişində xəstəlik aşkarlanarsa, onun digər sərnişinlərdən kənarlaşdırılıb təyyarədə arxa sırada təyin edilmiş boş yerlərdə oturmasının təmin oluna bilməsidir". Əvvəl hər gün 5-6 reys olurdu. İndi ayrılan kvota tələbatı necə ödəyəcək və bu, bilet satışı ilə bağlı özbaşınalıqların, sui-istifadə hallarının meydana çıxmasına səbəb ola bilərmi? Reyslərin sayının artırılmasına zərurət varmı?

Əslən Naxçıvandan olan millət vəkili Fazil Mustafa yaranmış vəziyyətdən narahatlığını ifadə edib. Millət vəkili özünün sosial şəbəkə hesabında bunları yazıb: "Bu gün Milli Məclisdə Naxçıvana getməli olan, eyni zamanda Naxçıvandan Bakıya gəlməli olan vətəndaşların problemini qaldırdım. Hökumət ancaq online bilet almağa imkan tanıyıb, elə insan var ki, nə interneti var, nə də kartı. Bilet almada qeydiyyat məsələsi məhdudiyyəti də qoyulub. Nə qeydiyyatdır bu? Kimlər qalıbsa siyahıya alın göndərin, əlavə sıxıntı niyə yaradırsınız? Üstəlik bilet pulu da yoxdur. Maliyyə nazirinə müraciət etdim ki, təcili əlavə təyyarələr üçün pul ayrılmalıdır. Bilet pulu olmayan vətəndaşlar dövlət hesabına biletlə təmin olunmalıdır. Əgər vəsait yoxdursa, şəxsən mən öz maaşımdan 20 nəfərə bilet almağı öz öhdəmə götürürəm. Hesabı göstərin ora keçirim. Bunlar xarici ölkə vətəndaşı deyillər, 3 aydır evlərindən didərgin düşüblər, ana gedib Naxçıvanda əsgərlikdəki oğluna baş çəkməyə, yol bağlanıb qalıb orada. Üç aydır xeyirxah insanların gətirdiyi azuqə ilə ayaqda qalır. Naxçıvanlıların bu ağır şəraitdən çıxması üçün bütün zəruri addımlar atılmalıdır".

Əslən Naxçıvandan olan digər ictimai fəal, İSBAM sədri Samir Adıgözəlli də "Bakı-Xəbər"ə açıqlamasında bu qərarın narahatlıq yaratdığını bildirib:"Bu xəbər sevindirici olmağı ilə yanaşı, həm də ciddi narahatlıq yaratdı. İlk növbədə reyslərin sayı çox azdır. Həftədə iki reys bu problemi aradan qaldıra bilməyəcək. Artıq ayın 18-nə bütün biletlər satılıb. Onlayn qaydada girib bilet almaq mümkün deyil. Orda yaşayan insanların bəyəm hamısı onlayn bilet ala bilir? Çox adamın heç bank kartı yoxdur. Bir qədər məntiqlə hərəkət edilməlidir. Məhdudiyyət məsələsi də problem yaradır.

Hətta ayrılan iki reysə belə tam sərnişin minməyəcək. Belə çıxır ki, Bakıya gəlmək istəyən adamın növbəsi gəlib payızda və ya qışda çatacaq. Bu gün rayonlara işləyən mikravtobuslar qiyməti çox baha edir və insanları bir-birinin üstündə gətirir. Naxçıvan da Azərbaycan ərazisidir, yoxlama keçirib vətəndaşları təyyarəyə buraxmaq olar. Hesab edirəm ki, əvvəlki qaydada reys sayları tam bərpa olunmalıdır. Azərbaycanın digər rayonları ilə əlaqə necədirsə, bunu da elə etmək lazımdır".

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ-ın din azadlığı hesabatında "Azərbaycan yanlışı" - dini fəallar təqib olunur?...

**Azərbaycanla bağlı növbəti uydurma yanaşma ortaya çıxıb. ABŞ Dövlət Departamenti beynəlxalq dini azadlıq haqqında hesabatını təqdim edib. Dövlət katibi Mayk Pompeo çərşənbə günü mətbuat konfransında məruzəni səsləndirib. O qeyd edib ki, Amerika heç bir halda ideal ölkə olmasa da, biz həmişə ən yaxşı tərəfə doğru dəyişməyə çalışırıq.**

*"Hesab edirəm ki, bu cür hesabatları Azərbaycanı sevməyən dairələr sifariş edirlər"*

**Seyid Camal Əzimbəyli:** *"Ölkəmizdə dini mənsubiyyətinə, kimliyinə görə kimsə təqib olunmur"*



Bu ilin məruzəsi Prezident Trampın sərəncam imzalamasından bir həftə sonra təqdim edilib. Sərəncamda ABŞ hökumətinə dini etiqad azadlığına prioritet diqqət ayırmaq tapşırılır. ABŞ-ın beynəlxalq dini azadlıqlar üzrə səfiri Sem Braunbek bildirib ki, hesabata görə, bir çox ölkədə insanlar dini azadlıqdan daha çox dini təqiblə daha yaxşı tanışdırlar: "Biz bunu, ilk növbədə, kommunist ölkələrində görürük, kommunizmə dini azadlıqla yanaşı yaşamaq çətindir. Kommunistlər ateistlərdir və din azadlığına dözə bilmirlər".

Hesabatda Azərbaycanda dinlə bağlı sui-istifadələrin olduğu iddia edilir. Qeyd edilir ki, guya Azərbaycanda hakimiyyət orqanları dini fəallara qarşı fiziki təqibləri və həbsləri davam etdirirlər. Məruzədə Azərbaycanla bağlı bildirilir ki, yerli məhkəmələr 2018-ci ilin iyulunda Gəncə şəhər merinə hücumdan sonra saxlanmış 77 nəfərdən 57-ni müxtəlif müddətə azadlıqdan məhrum ediblər. Yerli hüquq-müdafiə təşkilatları bildirirlər ki, guya hakimiyyət orqanları dini fəallara qarşı fiziki təqibləri və həbsləri davam etdirirlər.

ABŞ-ın dini etiqad azadlığı üzrə orqanı USCIRF bu yaxınlarda Azərbaycanı Dövlət Departamentinin xüsusi nəzarət siyahısına daxil etməyi tövsiyə edib. Bu da o deməkdir ki, guya Azərbaycanda dini etiqad azadlığı sistematik və görünməmiş şəkildə pozulur. Braunbek deyib ki, USCIRF-in tövsiyələri nəzərə alınacaq.

Göründüyü kimi, sözügedən hesabatda Azərbaycanla bağlı məqamlar tamamilə qərəzli və obyektivlikdən uzaq yanaşmadır.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Azərbaycanda dini fəalların təqib olunmasından söhbət belə gedə bilməz: "Ona görə ki, ölkəmizdə dini mənsubiyyətinə, kimliyinə görə kimsə təqib olunmur. Azərbaycan regionun ən tolerant ölkəsidir. Bütün inanc sahibləri üçün hər cür şərait yaradılıb. Dünyəvi dövlət olan Azərbaycanda hər kəsin dini inancına, dini ayinlərin icra olunmasına hörmətlə yanaşılır. Kimsə dövlətin qanunlarını, Konstitusiya ilə müəyyən edilmiş qaydaları pozursa və buna görə cəzalandırılırsa, o zaman bunu dinlə əlaqələndirmək doğru deyil. Yaxşı olardı ki, Dövlət Departamenti rəsmiləri hesabat hazırlayanda məsələlərə obyektiv yanaşsınlar. Təəssüflər olsun ki, bütün bunlar nəzərə alınmadan Azərbaycandakı dini mühitlə bağlı belə uydurma xarakterli hesabatlar hazırlanır. Hesab edirəm ki, bu cür hesabatları Azərbaycanı sevməyən dairələr sifariş edirlər. İstisna deyil ki, sözügedən qərəzli hesabatın hazırlanmasında erməni lobbisinin də əli var. Ona görə də biz hər zaman ayıq olmalıyıq və imkan verməməliyik ki, belə hesabatlar hazırlansın".

***Vidadi ORDAHALLI***

# Azərbaycan rəsmən OPEK üzvlüyünə dəvət aldı - nəyin hesabına və dövlətimiz nə qazanacaq...

**OPEK-in baş katibi Məhəmməd Sanusi Barkindo Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkil etdiyi postpandemiya dövründə energetika məsələləri üzrə vebinar zamanı deyib ki, dünya beynəlxalq enerji əməkdaşlığına yardıma və neft bazarının davamlı sabitliyinin təmin edilməsi üzrə göstərilən səylərin ilk sıralarında olduğuna görə Azərbaycana çox borcludur.**




**Elşən Əliyev:** *"Görünən budur ki, Azərbaycan OPEK-ə üzv olmağa hələ tələsmir"*

M.Barkindo bildirib:"OPEK Azərbaycanın neft hasilatının azaldılması üzrə razılaşmada iştirak etməsindən qürur duyur və yüksək səviyyədə dəstəyə görə Azərbaycana minnətdardır. Bu il təşkilatımızın 60 yaşı tamam olacaq və biz Azərbaycanı OPEK ailəsinin üzvü kimi məmnuniyyətlə qarşılayardıq".

OPEK-in baş katibi qeyd edib ki, Azərbaycan, həmçinin Qaz İxrac Edən Ölkələr Forumunda (GECF) müşahidəçidir:

"Azərbaycanın GECF-də iştirakı bu ölkənin bir çox OPEK-ə üzv ölkələr və neft hasilatının azaldılmasına dair razılaşmada iştirak edən ölkələrlə qlobal əməkdaşlığının daha da genişlənməsini təmin edir. COVID-19 ilə əlaqəli bazar risqlərinə qarşı mübarizə sahəsində təcrübəmiz yüksək səviyyədə çoxtərəfli əməkdaşlığın vacibliyini göstərir. Biz bu sahənin və nəticədə bütün dünyanın xeyrinə olan daha geniş və konsensusa əsaslanan həllər üzərində işləmək fürsətini əldən verməməliyik. Bizim qapımız dəyərlərimizi, qayğılarımızı və daha yaxşı gələcəyə ümidlərimizi bölüşənlər üçün həmişə açıqdır".

Göründüyü kimi, Azərbaycan OPEK-dən bərabərhüquqlu üzvlüyə dəvət alıb. Bizi OPEK üçün cəzbedici edən nədir və bundan Azərbaycan hansı dividendləri əldə edə bilər?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dünyanın nüfuzlu ekspertləri OPEK-in bundan sonra neft bazarı və oradakı qiymətləri təkbaşına tənzimləyə bilməyəcəyindən belə qənaətə gəlib:"Azərbaycan da uzun illər iqtisadiyyatı neftdən asılı olan ölkə kimi bu təşkilatın qərarları ilə bəzi razılaşmalara gedib. OPEK-ə üzv olan və kartelə daxil olmayan ölkələrin neft hasilatının azaldılması ilə bağlı Vyana razılaşmasına (2016) uyğun olaraq Azərbaycan da neft hasilatını azaldıb. Hazırda dünyada təqribən 70 ölkədə neft çıxarılır. 70 ölkədən 45-i neft ixrac edir. İllər boyu OPEK-ə üzv olan ölkələrin sayı 11-13 arasında dəyişib. Uzun müddət əvvəl yaranmasına baxmayaraq, heç bir ölkə OPEK-ə üzv olmağa cəhd göstərməyib. Təşkilata elə ölkələr üzv olub ki, Azərbaycandan qat-qat az neft istehsal ediblər. İstər Latın Amerikası, istər Afrika, istərsə də Uzaq Şərq ölkələri olsun. Bu təşkilata üzv oldunsa, hasilatla bağlı onun nizamnaməsinə, öhdəliklərinə riayət etməlisən. İkinci məsələ ixracatla bağlıdır. Yəni artıq bütün bunlarla bağlı monitorinq edilirsən. Ümumiyyətlə, OPEK ölkələrində uzun onilliklər boyu, əsasən də 1990-cı ildən sonra nizam-intizam heç də yaxşı olmayıb. Neft qiymətlərinin aşağı düşməsilə bağlı təkcə ötən ildən hasilatın tənzimlənməsi yönündə mütəmadi görüşlər və razılaşmalar əldə olundu. Biz şahidi olmuşuq ki, bəzən OPEK üzvü olan ölkələr hasilatın azaldılması ilə bağlı qərarı hamılıqla dəstəkləməyib.

Əslində təşkilatın yaradılmasında da məqsəd məhz təsir mexanizmlərindən yararlanmağa xidmət edir. OPEK Azərbaycanın təşkilata üzvlüyə qəbuluna baxmağa hazır olduğunu bir neçə il əvvəl də bəyan edib. Çünki intizamlı və potensialı yüksək ölkə kimi biz onları cəlb edirik. Ancaq görünən budur ki, Azərbaycan OPEK-ə üzv olmağa hələ tələsmir. Çünki özünün neft siyasətini məhdudlaşdırmaq istəmir".

***Məhəmmədəli QƏRİBLİ***

# Qarabağdan Qafana çəkilən "üçüncü erməni yolunu" nəzarətdə saxlamaq imkanları - əsasən talan edilmiş təbii sərvətlər daşınacaq...

**Elşən Həsənov:** *"Kimlərsə həmin yolla Azərbaycanın sərvətlərini talayıb daşımaq istəyirsə, ilk növbədə, Azərbaycan Ordusunu qarşısında görməlidir"*

**Azərbaycan Müdafiə Nazirliyi ermənilərin işğal altında olan Azərbaycan ərazilərindən Ermənistana çəkmək istədikləri üçüncü yolla bağlı bəyanat yayıb. Həmin bəyanatda deyilir: "Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb.**

Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir".

Qeyd edək ki, ermənilərin bu bədxah niyyətləri ilə bağlı ilk məlumatı Azərbaycan mediasına məhz "Bakı-Xəbər" qəzeti verib. Həmin məlumatda qeyd edilirdi ki, ermənilər bu yol vasitəsilə həm də talan olunmuş təbii sərvətləri Ermənistana daşımaq məqsədi güdürlər. Bu baxımdan da, Müdafiə Nazirliyinin ictimailəşdirdiyimiz bu mövzuya verdiyi impulsiv reaksiyanı təqdirəlayiq hal kimi qiymətləndiririk. Göründüyü kimi, ermənilərin çəkmək istədiyi yeni yolun ordumuz tərəfindən nəzarətə götürüldüyü bildirilir. Ordumuzun bu imkanları necə dəyərləndirilə bilər?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu Ermənistanın Azərbaycana qarşı təxribatlarının davamı saymaq olar:"Şuşadakı "inauqurasiya təxribatı"ndan sonra rəsmi İrəvan indi də Azərbaycanın işğal olunmuş əraziləri üzərindən Dağlıq Qarabağa yol çəkir. Yeni yol işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarını keçərək Ermənistandakı Qafan rayonunu Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək. Ermənistanın bu addımı, faktiki olaraq, atəşkəs rejimini və sülh danışıqlarını pozmaq cəhdidir. Ermənistanın atəşkəs sazişi və sülh danışıqları prosesində işğal olunmuş ərazilərdə, döyüş xəttində infrastruktur layihələri, yaşayış məskənləri inşa etməsi, süni məskunlaşma aparması beynəlxalq qanunvericiliyə əsasən qadağandır. Bununla bağlı BMT-nin bir sıra qətnamə və qərarları mövcuddur. Digər tərəfdən, Ermənistanın bu addımı, hətta Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə daxil olmayan Azərbaycan rayonlarından keçən yol inşa etməsi danışıqlar prosesinə inanmadığını və yaxın illərdə bu əraziləri boşaltmaq fikrində olmadığını göstərir. Başqa sözlə, Ermənistan öz davranışları ilə danışıqları sadəcə imitasiya etdiyini, müxtəlif vasitələrlə prosesi ləngitməyə çalışdığını sübut edir. Artıq Avropa Parlamenti bununla bağlı bəyanat qəbul edib. Bəyanatda qeyd olunur ki, magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan verilib və beynəlxalq hüquq pozulub.



Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Bu baxımdan da Azərbaycan ordusunun imkanları çatır ki, həmin təxribatın qarşısını alsın. Müdafiə Nazirliyi də öz bəyanatında buna qadir olduğunu bəyan edir. Beynəlxalq hüquq da bu haqqı bizə tanıyırsa, niyə düşmənə layiq olduğu cavabı verməyək? Azərbaycanın ərazilərində görülən bütün işlər bizim nəzarətimiz altında olmalıdır. Kimlərsə həmin yolla Azərbaycanın sərvətlərini talayıb daşımaq istəyirsə, ilk növbədə Azərbaycan Ordusunu qarşısında görməlidir".

**Məhəmmədəli QƏRİBLİ**

# Rusiya mediasında Paşinyanı gözləyən təhlükə barədə mesaj - güc orqanları koronavirusla mübarizədən imtina edə bilər

**Məhərrəm Zülfüqarlı:** *"Paşinyan qorxur ki, güc strukturları pandemiya üzündən onu devirə bilər"*

**Rusiyanın məşhur Lenta.ru saytında dərc olunmuş "Biz cəhənnəmə gedirik" başlıqlı məqalədə qeyd edilir ki, Ermənistan COVID-19 koronavirus infeksiyası ilə savaşı uduzub. Ölkədə xəstəliyin sürətlə yayılması yenidən müşahidə olunur, ağır vəziyyətdə olan pasiyentlərin faiz nisbəti kəskin şəkildə artıb, səhiyyə sisteminin resursları tükənməkdədir:**




"Ölkədə vəziyyət həqiqətən də pisləşib: bütün dünya məhdudiyyətləri aradan qaldırır və koronavirus epidemiyasının azalmasını qeyd edir, Ermənistanda isə xəstələrin sayı üç dəfə artıb".

Müəllif hesab edir ki, Paşinyan güc strukturlarının koronavirusla mübarizə aparmasına inanmır, bu məsələdə onlara eibar etmir: "Hakimiyyət orqanları vəziyyətin pisləşməsində dərhal vətəndaşları təqsirləndiriblər - Paşinyan göstərir ki, xalq xüsusən İrəvanda təhlükəsizlik tədbirlərinə kütləvi şəkildə etinasızlıq göstərir. Baş nazir qaydaları pozanlara qarşı elə həmin "Facebook"un köməyilə mübarizə aparır, vaxtaşırı küçələrdə sosial məsafəni və evdən kənarda maskasız olmaq barədə qadağanı pozan insanların fotoşəkillərini dərc edir. O, sosial şəbəkənin digər istifadəçilərini də bu "kütləvi epidemiya əleyhinə hərəkata" qoşulmağa çağırır.

Hakimiyyət orqanları hələlik heç bir başqa tədbir tətbiq etməyə hazırlaşmırlar. Paşinyan artıq eyhamla bildirib ki, hüquq-mühafizə orqanları epidemiyaya qarşı mübarizə aparmayacaqlar, çünki bu məsələni həll edə biləcək "güc strukturu yoxdur".

Müəllif işğalçı ölkə Baş nazirinin infeksiyanın kəskin artması barədə bu cümləsini də xatırladıb: "Biz kritik bir nöqtəyə gəldik - cəhənnəmə addımlayırıq...".

Belə görünür ki, koronavirus məsələsində Paşinyan başını itirib. Vəziyyət o yerə gəlib çatıb ki, Ermənistan Baş naziri güc strukturlarının ona olan etimadını itirib. Belə getsə, həqiqətən də sözügedən qurumlar koronavirusla mübarizədən imtina edə bilər.

*"Son vaxtlar hakimiyyət daxilində müəyyən təbəddülatlar yaşanır"*

Məsələyə münasibət bildirən tarix üzrə elmlər doktoru, professor Məhərrəm Zülfüqarlının fikrincə, koronavirusla bağlı Ermənistanda vəziyyət həqiqətən kritikdir: "Bir tərəfdən Paşinyanın idarəçilik təcrübəsi yoxdur, o birisi tərəfdən o, populist və ambisioz xüsusiyyətə malikdir. Bu da dövləti idarə etməkdə çətinlik yaradır. Küçə hərəkatı dalğasında hakimiyyətə gələn Paşinyan elə bilirdi ki, hakimiyyəti idarə etmək populist çıxışlar etmək qədər asandır. Ancaq ötən iki il göstərdi ki, bu belə deyil. Son vaxtlar hakimiyyət daxilində müəyyən təbəddülatlar yaşanır. Bu da onu çox narahat edir. Əvvəl Paşinyan koronavirusa görə əsasən erməni cəmiyyətini ittiham edirdi. Deyirdi ki, qaydalara əməl etmirlər. İndi buna görə həm də güc strukturlarını günahlandırır. Baş Qərargah rəisi Davtyanın koronavirus şəraitində oğluna toy etməsi və buna görə məlum istefalar Paşinyanda xof yaradıb. O hesab edir ki, bu, çox pis presedent yaratmaqla yanaşı, həm də bu məsələdə güc strukturlarının fəaliyyəti ilə bağlı şübhə yaradır. Paşinyan qorxur ki, güc strukturları pandemiya üzündən onu devirə bilər. O üzdən, Paşinyan ona sadiq olan şəbəkə qurmaq istəyir".

**Vidadi ORDAHALLI**

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər olub ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür.**





# Heydər Əliyev Azərbaycanın xilaskarıdır

Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əliyevdir.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma, nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər, böyük risqlərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük dəstəyi ilə ölkə Prezidenti seçildi.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırıb. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

***Əhliman ƏMİRASLANOV***
***akademik,***
***SSRİ Dövlət mükafatı laureatı, Milli Məclisin Səhiyyə komitəsinin sədri***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Avroparlamentdən Ermənistanın sərsəm yol ideyasına sərt diplomatik təpki... İrəvana hərbi xəbərdarlıq edildi



**Ermənistandan Azərbaycanın işğal altındakı ərazilərinə yeni yol çəkmək niyyəti düşmən ölkə üçün indidən ciddi fiasko ilə nəticələnib. Əvvəla, beynəlxalq miqyasda buna sərt reaksiya verilib və Ermənistan növbəti dəfə işğalçı ölkə qismində təsbit edilib.**

Artıq məlumdur ki, Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand, Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku Ermənistanla Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıb. Bəyanatda bu qərarın Azərbaycanın müvafiq orqanları ilə razılaşdırılmadan verildiyi və bunun beynəlxalq hüququ pozduğu qeyd edilir. Bəyanatda bildirilir: "Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən əsas prinsiplərinə dəstəyimizi bir daha bəyan edirik. Bu vasitəçiliyin uğur qazanması üçün biz Ermənistan və Azərbaycan hakimiyyətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlara öz öhdəliklərini gücləndirməyə çağırırıq". Bununla bərabər, sənəddə həm də magistral yol tikintisinin münaqişə prosesinə yaratdığı maneə və təhlükələr öz əksini tapıb. Bəyannamədə göstərilib ki, magistralın tikintisi Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının işğalı nəticələrinin möhkəmləndirilməsinə yol açaraq, etimad və sülhün yaradılmasına əlavə təhdidlər yaradır.

Sənəddə qeyd edilir ki, magistral yolun tikintisi Azərbaycanın səlahiyyətli qurumlarının razılığı olmadan qərarlaşdırıldığına görə bu proses beynəlxalq hüququn norma və prinsiplərinin birbaşa pozuntusudur. İlk dəfədir ki, beynəlxalq təşkilat, yəni Avropa Parlamenti səviyyəsində Ermənistandan başlanan və Azərbaycanın işğal olunmuş ərazilərinədək davam edən qanunsuz infrastruktur layihəsi bu qədər açıq və birmənalı mətnlə pislənir. Bu isə beynəlxalq hüquq baxımından da müstəsna əhəmiyyət kəsb edir.

Beləliklə, növbəti dəfə beynəlxalq miqyasda Ermənistanın işğal etdiyi torpaqları qanuniləşdirmək cəhdlərinə siyasi və hüquqi zərbə dəymiş oldu. Bunun ardınca ermənilər üçün daha bir şok məqam Azərbaycan Müdafiə Nazirliyinin yaydığı bəyanat oldu:"Azərbaycan ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb. Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir". Bu fikirlərdən aydın görünür ki, Ermənistanın Qarabağa uzanan bütün yollar ordumuzun nəzarətindədir və istənilən vaxt o yollara zərbə endirmək üçün də Azərbaycan bütün imkanlara malikdir.

Burada onu bir daha xatırlatmaq lazım gəlir ki, hələ iki il əvvəl Şərur rayonunun Günnüt kəndi və ətafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əkshəmlə əməliyyatları ilə işğaldan azad edilib. Bununla da ordumuz daha əlverişli mövqelərə sahiblənib, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi nəzarət altına keçib. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verməsidir. Elə erməniləri də qorxudan budur və onlar bu səbəbdən yeni yol çəkmək eşqinə düşüblər. Amma artıq beynəlxakq qurumlardan və Azərbaycandan bu xüsusda Ermənistana sərt xəbərdarlıq edilib. Bakı bildirir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanı işğal altında olan Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən növbəti, üçüncü yolun çəkilişi işğalçı Ermənistan tərəfindən həyata keçirilən qanunsuz fəaliyyətin bir hissəsidir. Belə hesab edilir ki, Ermənistanın bu addımı təcavüzkar ölkənin Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalını möhkəmləndirmək məqsədi güdərək, həmçinin bu ərazilərdə demoqrafik vəziyyətin məqsədyönlü şəkildə dəyişdirilməsi, qanunsuz məskunlaşdırmanın davam etdirilməsi, təbii sərvətlərin talan edilməsi, istismarı və daşınmasının həyata keçirilməsinə xidmət edə bilər. Artıq Azərbaycan Ermənistanın bu məkrli niyyəti barədə bütün beynəlxalq qurumları məlumatlandırır. Hesab edilir ki, Avropa Parlamenti ilə yanaşı, digər bir sıra beynəlxalq qurumların da məsələyə sərt reaksiyası tamamilə gözləniləndir. Elə bu da Ermənistan üçün beynəlxalq miqyasda yeni problemlərin yaranması deməkdir. Çünki bu durumda dünya görür ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə üçüncü magistral yolu çəkməsinin başlıca səbəbi İrəvanın qanunsuz fəaliyyətini davam etdirərək işğalı möhkəmləndirməsidir. Bu isə Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə Ermənistanın vurduğu növbəti zərbə deməkdir. Qeyd edilənlərlə bağlı Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qanunsuz iqtisadi fəaliyyətlərin, maddi resurslardan qanunsuz istifadə faktlarının pislənməsi istiqamətində, Avropa Parlamenti ilə yanaşı, digər qurumlar tərəfindən yeni sənədlər qəbul ediləcəyi də istisna olunmur.

Digər tərəfdən, Ermənistanın qanunsuz əməlləri onun öz beynəlxalq öhdəliklərinə də ziddir. Elə bu fonda beynəlxalq ictimaiyyətin, ümumiyyətlə, məsələyə daha sərt reaksiya verməsi gözləniləndir. Bu mənada, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsinə cəhd göstərən siyasəti uğursuzluğa məhkumdur. Yuxarıda qeyd olunduğu kimi, burada hərbi amil də öz spzünü deyir. Sirr deyil ki, Azərbaycan Silahlı Qüvvələri düşmənin strateji obyektlərinin məhv edilməsi üçün raket-artilleriya qurğu və sistemlərinə malikdir. Ordumuza bu fonda düşmənin bütün ərazisindəki strateji və hərbi təyinatlı obyektlərə nəzarətin gücləndirilməsi, zərurət yaranarsa onların əhəmiyyətinə görə dərhal məhv edilməsinə hazır olmaqla bağlı müvafiq tapşırıqlar da verilib. Əldə edilən silahlar bu tapşırığı asanlıqla yerinə yetirməyə imkan verir. Bu gün də ölkəmizdə ən müasir silahlar alınır və ordumuzun ixtiyarına verilir. Ölkənin müdafiə sənayesi müasir texnologiyalar əsasında durmadan inkişaf edir. Qısa müddətdə hərbi sənayesi formalaşan Azərbaycanda bu gün ən müasir silahlar, döyüş sursatları və hərbi texnikalar istehsal olunur. Müharibə şəraitində olan bir ölkənin müdafiə qabiliyyəti öz sənaye istehsalının hesabına gücləndirilir. Bu istehsal prosesi durmadan təkmilləşdirilir. Nəticədə düşmənin bütün obyektlərinə, o cümlədən Ermənistandan Azərbaycanın işğal altındakı ərazilərinə çəkiləcək yeni yola istənilən vaxt zərbə endirilə bilər. Məsələn, ordumuzun ixtiyarında olan "MSTA-S" özüyeriyən artilleriya qurğusu vasitəsilə bunu etmək elə də çətin deyil. Düşmənin artilleriya və minomyot batareyalarını, tanklarını və digər zirehli texnikasını, canlı qüvvəsini, möhkəmləndirilmiş atəş nöqtələrini və digər hədəflərini məhv etmək üçün bu, ideal silah sayılır. "Smerç" reaktiv yaylım atəşi sistemləri də burada mühüm əhəmiyyət kəsb edir. Dünyada öz sinfində ən dəhşətli və dağıdıcı silah olan "Smerç" sistemləri 300 millimetrlik raketlərlə atəş açır. Bir "Smerç" sistemi 16 raket daşıya bilir, həmin raketlər ümumilikdə 522 mindən çox qəlpə daşıyır və bu da silahın nə dərəcədə dağıdıcı gücə malik olduğunu göstərir. "Smerç" sistemləri açıq ərazilərdə, səhrada və çöllükdə tətbiq olunmaq üçün daha əlverişlidir. 90 kilometr məsafədən hədəfi dəqiq vura bilir. Belə ki, "Smerç"lər hədəfi özü axtarıb tapan raketlər, habelə tank əleyhinə raketlərlə təchiz olunub. Bir "Smerç" sistemi tam döyüş komplekləşdirməsində 72 yaylım atəşi aça bilir ki, bu da orta ölçülü şəhəri darmadağın etmək üçün kifayətdir. Öz dağıdıcı gücünə və taktiki-texniki göstəricilərinə görə dünyada bənzəri yoxdur. "Vena" özüyeriyən artilleriya qurğuları da düşmən infrastrukturu asanlıqla məhv edə bilər. TOS-1A "Solntsepek" ağır odsaçan sistemləri də burada az əhəmiyyət kəsb etmir.

Bundan başqa məlumdur ki, Azərbaycan strateji əhəmiyyətli Naxçıvan bölgəsində özünün hərbi iştirakını artırmaqda, Əlahiddə Ümumqoşun Ordunu ən yeni, dağıdıcı və yüksək dəqiqlikli silah sistemləri ilə təchiz etməkdə davam edir. Türkiyədən alınan ən yeni və yüksək dəqiqlikli TRG-300 "Pələng" reaktiv yaylım atəşi sistemlərinin burada yerləşdirilməsi də qeyd edilənlərin təsdiqidir. Xatırladaq ki, "Roketsan" şirkəti tərəfindən istehsal edilən TRG-300 "Pələng" reaktiv yaylım atəşi sistemi Türkiyənin 300 millimetrlik reaktiv yaylım atəşi sistemlərinin son versiyasıdır.

Bu sistem kifayət qədər yüksək dəqiqlikli raketlər buraxır, "Pələng" raketlərinin hədəfdən ehtimal olunan dairəvi yayınması 10 metrdən də azdır. Raketlər GPS sistemi ilə dəstəklənir, 105 kiloqram ağırlıqlı döyüş başlığına malik olan "Pələng" raketinin radiusu 120 kilometrdir. Lakin raketin daha dağıdıcı döyüş başlığına malik olan versiyası da var. Belə ki, 190 kiloqramlıq döyüş başlığı daşıyan "Pələng" raketi 90 kilometrdən hədəfi vura bilir, bu zaman hədəfdən mümkün yayınma 80 metrə qədər çata bilər. Amma bu ehtimal olunan yayınmanı raketin yüksək dağıdıcı gücü kompensasiya edir.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl Türkiyədən 300-millimetrlik "Kasırğa" reaktiv yaylım atəşi sistemləri alıb və həmin sistemlərdən bir qismini Naxçıvanda yerləşdirib. Bu silahlar Ermənistandan Qarabağa gedən bütün yolları istənilən an məhv etməyə imkan verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan hərbi aviasiya sahəsində daha bir mühüm uğura imza atmağa hazırlaşır

**Bu gün dünyanın bir çox ölkələrində keçmiş SSRİ və Rusiya istehsalı olan hərbi texnikadan da geniş şəkildə istifadə edilir. Bura daxil olan texnikalardan biri isə Azərbaycan ordusunun da ixtiyarında olan Su-25 hücum təyyarəsidir.**

Hələ sovetlər dönəmində istehsalına start verilən bu təyyarələr modernləşdirilərək geniş şəkildə istifadə edilməkdədir. Məsələn, elə bir neçə gün əvvəl Ukraynada Su-25 təyyarələri təkmilləşdirildikdən sonra ordunun sərəncamına göndərilib.

Bir müddət əvvəl modernizə edilmiş Su-25 təyyarəsi Qazaxıstanda da yenidən istismara qəbul edilib. Rusiyanın özündə bu təyyarələrin bundan sonra da azı 10 il istismarı nəzərdə tutulur. Bu təyyarələr döyüş meydanında, istənilən hava şəraitində, gecə-gündüz quru qoşunlarının bilavasitə dəstəklənməsi və müxtəlif obyektlərin məhv edilməsi üçün təyin edilib. Su-25 təyyarəsi döyüşdə sağqalma və yüksəkmüdafiəli sistemlərə malikdir. Əsas diqqət pilot kabinəsinin və yanacaq sisteminin təhlükəsizliyinə yönəldilib. Modernizə edilmiş Su-25 döyüş təyyarəsinin güclü döyüş kompleksinə müxtəlif toplar, aviabombalar, idarəolunan və idarəolunmayan "hava-yer", idarəolunan "hava-hava" raketləri daxildir. Ümumilikdə təyyarəyə 30 növ silah quraşdırıla bilər.

Yuxarıda qeyd olunduğu kimi, bu təyyarələrdən Azərbaycanda da istifadə olunur. Belə görünür ki, onların modernləşdirilməsi və əldə olunması bundan sonra Azərbaycana daha ucuz başa gələ bilər. Belə ki, Gürcüstan Su-25 təyyarələrinin istehsalını Azərbaycanla birgə inkişaf etdirə bilər. Bunu hərbi ekspert Vaxtanq Maisaya "Rezonansi" qəzetinə açıqlamasında təsdiq edir. Onun sözlərinə görə, hərbi təyyarələrin istehsalının bərpası məsələsində Gürcüstanın Ukrayna ilə əməkdaşlıq edəcəyi ehtimal olunur:"Ukraynada aviasiya sahəsinin möhkəm təməli var. Bu sahə Azərbaycanla birgə də inkişaf etdirilə bilər. GUAM ölkələrinin potensialından da istifadə etmək mümkündür". Qeyd edək ki, Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili bu yaxınlarda Su-25 təyyarələrinin ölkədə istehsalı, təmiri və bərpası üçün bütün texniki, intellektual və insan resurslarının olduğunu bildirib. Nazir deyib ki, müxtəlif ölkələr bu tip təyyarələrə böyük maraq göstərir. Xatırladaq ki, SSRİ dövründə Tiflis aviazavodu fəaliyyət göstərib. Zavodda keçmiş sovet respublikalarındakı müəssisələrdən əldə edilən komplektlər əsasında aviatexnikaların yekun yığılması həyata keçirilib. Azərbaycan indiki halda bu zavodun fəaliyyətinə maliyyə dəstəyi verməklə Su-25-lərin daha ucuz alınmasını təmin edə bilər. Bu, ölkə aviasiyasının gücləndirilməsi baxımından da vacib sayılır. Xatırladaq ki, ölkəmizdə Silahlı Qüvvələrin ayrı-ayrı qoşun növlərinin texnika parkının yeniləşdirilməsinə xüsusi diqqət yetirilir. Ötən dövrdə hərbi aviasiyanın gücləndirilməsi rəsmi Bakının əsas prioritetlərindən biri sayıla bilər. Yeni döyüş təyyarələrinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının (PUA) alınması, ölkədə PUA istehsalının yaradılması, aviaparka daxil olan təyyarələrin və helikopterlərin modernləşdirilməsi, hərbi aerodromların yenidən qurulması, milli kadrlarla komplektləşdirilmə nəticəsində Azərbaycan hərbi aviasiya imkanlarına görə Cənubi Qafqaz və MDB məkanında ön yerlərə yüksəlib. Azərbaycan pilotları uçuş saatlarına görə post-sovet məkanında ilk yerdə qərarlaşmaqla yanaşı, keçmiş sovet və NATO ölkələrində istifadə edilən uçuş aparatlarını idarə etməyi bacaran yeganə kadrlar hesab olunur. Hazırda Azərbaycanın hərbi aviasiya parkına keçmiş Sovet istehsalı olan MiG-21, MiG-23, MiG-25, MiG-29, Su-17, Su-24, Su-25, Aero L-29, Aero L-39 tipli döyüş və təlim təyyarələri, İl-76 yük, Tu-134 nəqliyyat təyyarələri, desant çıxarma və evakuasiya əməliyyatlarında istifadə olunan An-2 tipli yüngül təyyarələr, Mi-6, Mi-8, Mi-17, Mi-24, Mi-35M, Mi-172, Ka-32 tipli helikopterlər daxildir. Hərbi aviasiya parkına 2005-ci ildən daxil edilməyə başlanmış, Ukrayna istehsalı olan dördüncü nəsil MiG-29 təyyarələri müxtəlif çətin tapşırıqları yerinə yetirmək qabiliyyətinə malikdir. Adıçəkilən təyyarələr Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanda mövcuddur. İndi gürcü tərəfinin təklifi reallaşsa, Azərbaycan həm də hücum təyyarələrinin istehsalına start verməklə mühüm bir ilkə imza ata bilər. Eyni zamanda, ölkəmiz müasir aviasiya texnikalarının alışını da davam etdirir. Bu fonda məlumdur ki, Rusiya Azərbaycana hərbi təyyarələrin tədarükünü realizə etməyə çalışır. Söhbət Su-35 və MiQ-35 qırıcı təyyarələrindən gedir. Hər iki tip çoxfunksiyalı və yüksək manevrli döyüş təyyarələrinin özəlliyi onların 4++ nəslinə aid olmasıdır. Bu nəsil təyyarələrə qədər istehsal olunan digər döyüş qırıcıları yalnız modernizə olunaraq müəyyən imkanları artırılırdı. Bu təyyarələrin üstün xüsusiyyətlərindən biri də onların maksimal uçuş uzaqlığıdır. Bu göstərici Su-35-də 4500 kilometr, MiQ-35-də isə 3500 kilometrdir. Hər iki təyyarədə hədəfləri aşkar etmək üçün yeni tip radiolokasiya stansiyaları quraşdırılıb. Açıq arxitekturası olan hər iki təyyarə lokal müharibənin aparılmasında mühüm rol oynayan radioelektron mübarizə vasitələrindən ibarət rəqəmsal müdafiə kompleksləri ilə təchiz edilib. Bu, həmin təyyarələrə bütün növ müasir aviasiya silahlarından istifadə etmək imkanı verir.




**Düşmənin hava hücumundan müdafiə vasitələrinin əhatə etdiyi zonadan kənarda qalmaqla yüksək dəqiqlikli silahlarla yerüstü və suüstü hədəflərə effektiv zərbələr endirməyə malik olan Su-35 təyyarəsi 12, MiQ-35 təyyarəsi isə 9 ədəd müxtəlif tipli aviasiya məhvetmə vasitələri daşımaq üçün asqı nöqtəsinə malikdir. Su-35 və MiQ-35 qırıcılarının fərqləndirici xüsusiyyətlərindən biri də uzaq məsafədə eyni vaxtda bir neçə hava hədəfinin aşkar edilməsi, izlənməsi və məhv edilməsidir.**

***Nahid SALAYEV***

# Xarici ekspertlərdən Azərbaycanın gələcəyi üçün maraqlı pandemiya proqnozu - yoluxma davam etsə belə, sosial vəziyyət pisləşməyəcək...

**Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasət nəticəsində əhalinin rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Məlumdur ki, son üç ayda ölkədə karantin rejimi tətbiq edilib. Bu müddət ərzində əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması məqsədilə dövlət tərəfindən əhaliyə yardım edilib.**




## *Vüqar Bayramov: "Pandemiya davam edəcəyi təqdirdə belə, vətəndaşların sosial vəziyyətinin pisləşməsi gözlənilmir, çünki..."*

Pandemiya dövründə əhalinin sosial vəziyyətinin yaxşılaşması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar, ekspertlər tərəfindən müsbət qarşılanır. Xarici ekspertlər də qeyd edirlər ki, pandemiya davam edəcəyi təqdirdə belə, vətəndaşların sosial vəziyyəti pisləşməyəcək.

Millət vəkili Vüqar Bayramov bildirdi ki, dövlət sosial təcrid tədbirlərinin tətbiq edildiyi müddətdə - aprel və may aylarında həm işləməyən vətəndaşlarımız, həm də muzdlu işçilər və sahibkarlar üçün dəstək nümayiş etdirdi. Muzdlu işçilər üçün büdcədən 210 milyon manat vəsait, sahibkarlar üçün isə 80 milyon manat maliyyələşmə həyata keçirildi. İşləməyən vətəndaşlarımıza iki ay ərzində 190 manat birdəfəlik yardım həyata keçirildi ki, bu da 600 min vətəndaşımızı əhatə etdi: "Bu müddətdə biz həm də dövlət tərəfindən maliyyələşən sosial proqramlara ayrılan vəsaitlərin həcmində də artımlar müşahidə etdik. Həm ünvanlı sosial yardım, həm özünüməşğulluq proqramına ayrılan vəsaitlərin həcmində artımlar oldu. Ölkə başçısının göstərişi ilə ödənişli ictimai iş yerlərinin sayı 2020-ci ildə 50 min artırılaraq 40 mindən 90 minə çatdırıldı. Məqsəd də ondan ibarət idi ki, işləməyən vətəndaşlarımızın işlə təmin olunmasına dövlət tərəfindən dəstək verilsin. Yəni aprel-may aylarında sahibkarların, aztəminatlı ailələrin dəstəklənməsi prioritet idi və prioritet olaraq da qalır. O da məlumdur ki, pandemiyanın yeni mərhələsində sahibkarlar üçün vergi güzəştlərinin edilməsi təsdiq olundu. Güzəştli kredit portfelinin həcmində artımlar təsdiqləndi. Söhbət 500 milyon manatlıq güzəştli kredit portfelinin təsdiq olunmasından gedir. Bunun da 60%-nə dövlət tərəfindən zəmanət həyata keçirilir. Eyni zamanda, bir milyon manata yaxın kredit portfelində dövlət tərəfindən 10%-lik subsidiya tətbiq olunacaq ki, bu da həmin kreditlər üzrə faizlərin azaldılması anlamına gəlir".

*"...özəl sektorda da yeni iş yerlərinin yaradılması prioritetdir"*

Millət vəkili xüsusi olaraq vurğuladı ki, pandemiya davam edəcəyi təqdirdə belə, vətəndaşların sosial vəziyyətinin pisləşməsi gözlənilmir. Çünki dövlət tərəfindən fərqli dəstək mexanimzləri mövcuddur və bu dəstək davam etdirilir. İşləməyən vətəndaşlarımız üçün də həm dövlət büdcəsi hesabına yeni iş yerlərinin yaradılması, eyni zamanda, sahibkarların daha çox dəstəklənməsi nəticəsində özəl sektorda da yeni iş yerlərinin yaradılması prioritetdir.

***Günel CƏLİLOVA***

# Koronavirusu real saymayanların "niyə tanınmışlardan kimsə vəfat etmir" sualına tutarlı cavab...

**Azərbaycanda son günlər koronavirusa yoluxmuş şəxslərin sayının artması ilə yanaşı, bu virusun varlığına inanmayanların da sırası genişlənir. Lakin elə virusun yayılma sürəti bu sıranın genişlənməsi ilə düz mütənasibdir, o artdıqca, bu da artır. Koronavirusa inanmayanlar, adətən, belə bir ifadə işlədirlər ki, niyə tanınmış şəxslər koronavirusa yoluxmurlar?**




## *Fatimə Hacıbəyli: "Koronavirusun varlığına inanmayanlar mütləq psixoloqa müraciət etməlidirlər"*

Onlar qeyd edirlər ki, belə bir xəstəlik varsa, məşhurlar da bu virusa yoluxardı. Ancaq həmin insanlar unudurlar ki, koronavirus elə bir xəstəlikdir ki, yaşından, cinsindən, milliyyətindən, vəzifəsindən, şəxsin hansı peşə sahibi olmasından asılı olmayaraq, təhlükəsizlik qaydalarına riayət etməyən hər kəsə yoluxur.

Koronavirusa yoluxanlar arasında məşhurlar da var. Həmin məşhurların siyahısını təqdim edirik:

Kanadanın Baş naziri Castin Trüdonun həyat yoldaşı Sofi Qrequar Trüdo.

Məşhur aktyor Tom Henks və həyat yoldaşı Rita Vilson.

İran Prezidenti Həsən Ruhaninin müavini İshak Cihangir.

Fransanın Mədəniyyət naziri Frank Riester.

İran Prezidentinin köməkçisi Məsumə Ebtekar.

"Yuventus"un oyunçusu Daniele Rugani.

Braziliya Prezidenti Jair Bolsonaru.

"Çelsi"nin ulduzu Hadson-Odoi.

Koronavirusa yoluxanlar arasında Azərbaycanın da məşhur şəxsləri var. Şair Şəhriyar del Gerani koronavirusa yoluxub. Xatırladaq ki, şair hələ ötən həftə 5 gün ərzində hərarəti yüksək olduğu üçün xəstəxanaya müraciət etmişdi. Xəstəxanada koronovirusla bağlı testdən keçən Şəhriyar del Geraninin test nəticəsi pozitiv çıxıb.

Bir müddət əvvəl isə Əməkdar artist, İrəvan Dövlət Azərbaycan Dram Teatrının baş rejissoru Sərvər Əliyev koronavirusa yoluxmuşdu. Baş rejissor virusa qalib gələrək sağalıb.

Təəssüf ki, koronavirusa yoluxub, ona qalib gəlməyən məşhurlar da var. İyunun 11-də Xalq artisti, xanəndə Teymur Mustafayev vəfat edib. Onun koronavirusa yoluxduğu açıqlanmışdı.

Qeyd etdiyimiz kimi, koronavirusa inanmayanlar "xəstəlik tutan tanışınız varmı?", "Niyə koronavirusa yoluxan məşhurlar ölmürlər?" ifadəsini tez-tez işlədirlər. Hər kəsin tanıdığı xanəndə Teymur Mustafayevin məhz koronavirusdan vəfat etməsi qeyd etdiyimiz virusun varlığına tutarlı arqument ola bilərmi?

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, koronavirusun zərərlərinin aradan qaldırılması üçün hökumət bütün tədbirləri ən yüksək səviyyədə görüb: "Artıq virusa yoluxmamaq vətəndaşlardan, ictimaiyyətdən asılıdır. Hesab edirəm ki, ictimai qınaq da çox fərqlidir. Müsbət fikirlər var, xəstəlikdən özünü qoruyan və ətrafdakılara tövsiyə verənlər var. Amma çox təəssüf ki, virusa inanmayanlar da var. Bəziləri koronavirusa bu xəstəliyin olmadığı fikri ilə yanaşır, adi qriplə müqayisə edirlər. Düşünürəm ki, bütün dünya dövlətləri öz resurslarını, gücünü, vaxtını buna sərf etdiyi halda, virusa inanmamaq ən azı gülüncdür".

*"...hətta bu xəstəlikdən vəfat etdiklərini biləndən sonra məlum fikirlərindən daşınar"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, koronavirusun varlığına inanmayanlar mütləq psixoloqa müraciət etməlidirlər. İnanmayan o insanları yaxşı olar ki, psixiatr, psixoloq əlavə olaraq yoxlasın. Çünki mümkünsüzdür. İnsanlar başa düşməlidirlər ki, hər bir şəxsin sağlamlığı, yaşaması təhdid altındadır. Ona görə də qəbul edilən qaydalara hamı çox ciddi riayət etməlidir".

F.Hacıbəylinin sözlərinə görə, koronavirusu qəbul etməyən insanlar qorxu, stress keçirən insanlardır. Hər şey insanın ruh halı, qorxuları ilə bağlı bir şeydir. İnsanlar ehtiyat etdiyi durumlardan qaçmağa çalışırlar. O insanların ruh halında problemlər var. Çünki faktiki vəziyyətə inanmayan insanın psixoloji problemi mövcuddur: "Biz heç vaxt karantin rejimində yaşamamışıq, indi rahat həyatımızdan ayrı düşmüşük. Ona görə insanlar tələşlanır və gerçəklikdən qaçır. Bu, kütlənin yaşadığı psixoloji sarsıntıdır. Əslində isə onlar reallığı qəbul etsələr, sağlamlıqları üçün daha faydalı olar. Hazırda koronavirusun varlığına inanmayan insanlar çox azdır. Ölkə başçısı koronavirus barədə məlumat verdikdən sonra insanlar infeksiya reallığını qəbul etdi".

Birlik sədri onu da əlavə etdi ki, koronavirusun varlığına inanmayanlar məşhur şəxslərin adıçəkilən virusa yoluxduqlarınu, hətta bu xəstəlikdən vəfat etdiklərini biləndən sonra məlum fikirlərindən daşınar. Onların inamsızlığı və sosial məsafəyə riayət etməməsi nəticəsində bu gün virusa yoluxanların sayı durmadan artır.

***Günel CƏLİLOVA***

# Dünya neft siyasətinin müəyyənləşməsində Azərbaycanın rolu artır

**Bu gün neft qiymətlərinin müəyyən edilməsi hasilatçı ölkələr üçün ən əsas prioitetlər sırasında yer alır. Çünki aşağı qiymətlərin iqtisadiyyat üçün yaratdığı böyük problemlər cari ilin mart və aprel aylarında neftin kifayət qədər ucuzlaşması fonunda özünü qabarıq büruzə verdi.**

Bu mənada, indi hasilatçı ölkələr üçün qiymətlərin hansı istiqamətdə dəyişməsi mühüm əhəmiyyət kəsb edir. İndilikdə ən effektiv tənzimləyici proses Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn OPEC+ formatıdır.

OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo bu xüsusda bildirir:"Azərbaycan prezidenti İlham Əliyev 2014-2016-cı illərdə neft bazarında böhran zamanı neft sənayesini inkişaf etdirmək üçün OPEC və qeyri-OPEC ölkələrinə müraciət edən ilk liderlərdən olub. Azərbaycan prezidenti OPEC və qeyri-OPEC ölkələri əməkdaşlığının güclü tərəfdarı olmağa davam edir".

Barkindo Azərbaycanın tarixən neft sənayesinə çox böyük töhfə verdiyini və neft sənayesinin inkişafının Bakıdan başlandığını deyib. O, ötən ilin martında Azərbaycanda OPEC və qeyri-OPEC ölkələrinin nazirlərinin birgə Monitorinq Qrupunun iclası barədə qeyd edərək, bu görüşün Əməkdaşlıq Bəyannaməsi üçün çox vacib toplantı olduğunu əlavə edib. OPEC-in baş katibi Azərbaycanın Əməkdaşlıq Bəyannaməsinin üzvü olmasından məmnun olduğunu bildirib: "Azərbaycanın bu bəyannaməyə yüksək səviyyədə dəstəyi və öhdəliyi üçün təşəkkür edirəm. Azərbaycanı, həmçinin, OPEC ailəsinin bir üzvü kimi görməkdən qürur duyaram". Bu açıqlamadan aydın görünür ki, Azərbaycanın neft bazarında rolunu yüksək qiymətləndirən OPEC ölkəmizi artıq öz sıralarında görmək istəyir. Barkindo bununla bağlı bildirib:"Azərbaycan neft sənayesinin beşiyidir. Neft sənayesi Pensilvaniyada deyil, Bakıda başlayıb. Azərbaycanı OPEC-ə üzv görməyə çox şad olardıq". Baş katib Azərbaycanın üzvlüyünün OPEC üçün qürur mənbəyi ola biləcəyini əlavə edib. O, həmçinin, bir daha OPEC+ çərçivəsində də Azərbaycanla uğurlu əməkdaşlıq edildiyini vurğulayıb.



Hazırda hasilatçı ölkələrin böyük əksəriyyəti bazarı qorumaq məqsədilə müvafiq fəaliyyətin davam etdirilməsini, xüsusən də OPEC-ə üzv və qeyri-üzv ölkələrin işbirliyinin zəruri olmasını gündəmə gətirir. Çünki məhz bu şəraitdə neft bazarını siyasi təsirlərdən xilas etmək mümkün sayılır. Hesab edilir ki, OPEC+ ölkələrinin addımı qarşıdakı dövr ərzində neftin qiymətini yüksək həddə saxlamağa xidmət edəcək. Bunu Azərbaycan da daim gündəmə gətirib. Bakı hesab edir ki, OPEC+ yalnız güclənərək və genişlənərək effektli olacaq. Azərbaycan qurumun genişlənməni dəstəkləyir. Bu fonda Bakı müəyyən təhlillərdən sonra təşkilata üzvlüyünü də istisna etmir. Hesab edilir ki, bu hal dünya neft siyasətinin müəyyən edilməsində Azərbaycanın rolunun daha da artmasına gətirib çıxaracaq. Rusiyalı ekspert Fyodor Lukyanov bildirir ki, Azərbaycan da daxil olmaqla, bir sıra qeyri OPEC ölkələri neft bazarında mövqelərini daha güclü hala gətirib:"Bu gün OPEC-ə daxil olmayan, neft hasil edən, lakin tam bir sıra səbəblər üzündən bir-birinə yaxın olan, Rusiya, Azərbaycan, Qazaxıstan və digərləri kimi eyni vəziyyətdə olan ölkələr daha çox koordinasiya sayəsində kartel qarşısında öz mövqelərini daha da gücləndirə biliblər. İndi OPEC-ə daxil olan və olmayan neft hasilatçısı ölkələrin hamısı yeni şəraitlərdə dünya bazarlarına təsir mexanizmlərini anlamağa çalışır: "Hazırkı şərtlərlə OPEC ölkələrinin hər biri ayrıayrılıqda dünyada neftin qiymət şərtinlərə təsir edə bilmir". Lukyanov hesab edir ki, gələcəkdə OPEC-ə daxil olmayan ölkələrin dünya neft bazarlarındakı vəziyyətdə rolunun yenidən qiymətləndirilməsini, həmçinin onların təsirinin gücləndirilməsini gözləmək mümkündür.

Hazırda Azərbaycanla OPEC arasında sıx əməkdaşlıq mövcuddur və bu əməkdaşlıq OPEC+ formatında həyata keçirilir. Bu əməkdaşlıq çərçivəsində ötən dövrdə neftin qiymətinin müəyyən qədər artması, ən əsası isə sabitləşməsi və neft bazarının tarazlaşdırılması əldə olunub. OPEC Azərbaycanla işbirliyinin davam etməsində maraqlı tərəf kimi çıxış edir. ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs" isə hesab edir ki, neft qiymətlərinin sonrakı taleyi OPEC+ formatından xeyli asılı olacaq:"Fiziki neft bazarındakı depolama qabiliyyətində hələ də problemlər var. Hazırda qlobal miqyasda anbarlarda saxlanılan neft və neft məhsullarının həcmi 1 milyard barrel səviyyəsindədir. Düzdür, OPEC-in qərarından sonra neftin qiyməti həddən artıq bahalaşıb. Amma dünya miqyasında neft ehtiyatlarının əvvəlki hesablamalardan daha yavaş azalacağı proqnozlaşdırılır. 2021-ci ilin dekabrında ehtiyatlar keçən ilə nisbətən yenə də yüksək olacaq". "Goldman Sachs" cari ilin sonuna olan qiymət proqnozunu isə 6 dollar artıraraq 45 dollar edib. Banka görə, pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması ilə artan neft tələbatı fonunda yüksələn neft qiymətləri yenidən aşağı istiqamətli təzyiqə məruz qala bilər. Amma OPEC+ hasilatı bir qədər də azaltsa, qiymətlər yenidən artmağa başlayacaq. Azərbaycan və digər hasilatçılar da məhz bunda maraqlıdır. Amma ABŞ-ın Corctaun Universitetinin professoru Brenda Şaffer bildirir ki, Azərbaycan indi dünya enerji bazarlarına həm də qaz tədarükçüsü kimi daxil olur və bu da ona əlavə üstünlüklər gətirir:**"Neftdən fərqli olaraq, təbii qaz COVID-19 böhranından qalib çıxıb". Onun sözlərinə görə, bu dövrdə qaza olan tələbat artıb və təbii qaz bərpa olunan enerji mənbələrinin dostuna çevrilib:"Azərbaycan və digər qaz hasilatçıları üçün də bu, əlavə üstünlük deməkdir. Bakının qaz bazarında da rolu artır və bu da ona yeni üstünlüklər qazandırır".**

***Ramil QULIYEV***

**Sosial şəbəkələrin xarakterik xüsusiyyətləri və müsbət məqamları ilə yanaşı, təhlükəli meylləri də var. Belə ki, sosial şəbəkələr bəzən cəmiyyətin rifahına deyil, zərərli informasiyaların yayılmasına, insanların şəxsi həyatlarına mənfi təsir etməyə, müdaxiləyə, hətta hakimiyyət orqanlarına qarşı böhtanlar yağdırmağa meyl göstərirlər.**

*"Niyə biz sosial mediada tez-tez hansısa məmurun ailə üzvlərinin təhqir olunmasını eşitməliyik?"*

# Alimlərimizə, ziyalılarımıza, dövlət adamlarına, sənət xadimlərinə çağırış - "Facebook"da söyüş bir qəpik, təhqir edilməyən məmur qalmır, biz hara gedirik...

***Azər Həsrət:** "Vəziyyət o həddə gəlib çatıb ki, sosial medianı açmaq olmur"*




Şübhəsiz, bütün bunlar siyasi motivli olmaqla yanaşı, fikir plüralizminə ziddir. Bu mənada bəzən sosial şəbəkələr heç də informasiya cəmiyyətinin ali məqsədlərinə xidmət etmir.

Aydın məsələdir ki, istənilən azad cəmiyyətdə gedən siyasi mübarizədə düşərgələr arasında qarşılıqlı ittihamlar normal bir şeydir. Bu, demokratik inkişaf yolunu tutan dövlətlərə xas olan bir xüsusiyyətdir. Təbii ki, hər şey etik çərçivədə olmalıdır. Yəni qarşılıqlı ittihamlar etik çərçivədən kənara çıxmamalıdır. Ancaq bir çox halda, xüsusən də son vaxtlar radikal müxalifətə yaxın çevrələrdən və yaxud da ola bilər ki, bu düşərgə ilə heç bağlılığı olmayan insanlardan hakimiyyətin, ayrı-ayrı məmurların ünvanına heç bir etik ölçü, çərçivə tanımayan çıxışlar baş alıb gedir. Ağılagəlməz qeyri-etik ifadələr işlədilir. Şəxsi həyatdan tutmuş, digər məsələlərə müdaxilə edilir. Hansı ki, belə halların baş verməsi yolverilməzdir. Təəssüflər olsun ki, belə şeylər var və bu da xoş təsir bağışlamayan mənzərə yaradır. Bir sözlə, sözügedən tendensiya, ümumilikdə, ciddi mənfi fəsadlar yarada bilər. O üzdən, belə hallar yolverilməzdir və bunun qarşısı alınmalıdır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən media eksperti Azər Həsrətin sözlərinə görə, belə hallar dözülməz həddə gəlib çatıb: "Vəziyyət o həddə gəlib çatıb ki, sosial medianı açmaq olmur. Konkret olaraq ölkənin ayrı-ayrı şəxslərinə yönəlik qeyri-etik ifadələr səsləndirilir. Xüsusən ayrı-ayrı dövlət qurumlarını idarə edən şəxslər, onların ailə üzvləri, yaxınları barədə tərbiyəsiz, əxlaqdan kənar ifadələr səsləndirilir. Xoş olmayan paylaşımlar edilir. Sosial şəbəkələrin imkanlarından istifadə edərək söyüş söyürlər. Bunu da edənlərin əksəriyyəti xaricdə oturub Azərbaycana qarşı söyüş kampaniyası aparan şəxslərdir. Təəssüflər olsun ki, o adamlar əlçatan olmadığına görə hüquq-mühafizə orqanları müvafiq addımlar ata bilmirlər. Hesab edirəm ki, Xarici İşlər Nazirliyi bu məsələ ilə məşğul olmalıdır. Xarici ölkələrdəki diplomatik səfirliklərimiz söyüşlə məşğul olan şəxsləri həmin ölkənin qanunları çərçivəsində intizama dəvət etməlidirlər. Bununla bağlı müəyyən tədbirlər görülməlidir. Təbii ki, burada söhbət ifadə və siyasi azadlıqların məhdudlaşdırılmasından getmir. Söhbət ondan gedir ki, aparılan mübarizə tərbiyə və əxlaq, qanun çərçivəsində olmalıdır.

Niyə biz sosial mediada tez-tez hansısa məmurun ailə üzvlərinin təhqir olunmasını eşitməliyik? Xüsusən də qadınların təhqir olunması ilə müşayiət edilən çıxışlar dinləməliyik, paylaşımlar görməliyik? Bunlar yolverilməzdir. Ən başlıcası bu, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə zidd yoldur. Bu yolu tutanlar, təbii ki, milli kimliyindən sapmış, öz ruhlarını şeytana satmış, xarici qüvvələrin əlində Azərbaycana qarşı istifadə olunan elementlərdir. Ona görə də hüquq çərçivəsində bunun qarşısı alınmalıdır".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, əmək şəraiti xüsusilə zərərli və ağır işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla onlara yaşa görə əmək pensiyası hüququnun verilməsi nəzərdə tutulur.**

# Bəzi kateqoriya insanlar üçün pensiyaya daha tez çıxmaq imkanı yaradıldı, ancaq...

***Rəşad Həsənov:** "Yeni layihədə bu məsələnin yumşaldılmasının təklif edilməsi müsbət haldır"*



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, pensiya təyin edilərkən həm pensiya kapitalının, həm də ümumi stajın (kişilər üçün 25 il, qadınlar üçün 20 il) eyni anda tələb olunması zərurətinin aradan qaldırılması təklif edilir.

Qeyd edilən kateqoriyadan olan vətəndaşlar üçün bu humanist yanaşma pensiya qanunvericiliyində dəyişikliklər edilməsinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni layihədə əksini tapır. Layihədə əmək şəraiti xüsusilə zərərli və ağır işlərdə çalışan şəxslərin tələb olunan qədər stajı olmadığı hallarla da bağlı humanist yanaşma özünü göstərir. Belə hallar üçün tələb olunan pensiya kapitalının məbləğinin 30 faizə qədər azaldılması təklifi layihədə yer alıb.

Bu layihənin əhəmiyyətindən danışan tanınmış iqtisadçı Rəşad Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, belə bir vacib məsələnin gündəmə gətirilməsi müsbətdir.

R.Həsənovun qeyd etdiyinə görə, elə şəxslər var ki, onlar əmək şəraiti xüsusilə zərərli və ağır işlərdə çalışırlar, bu şəxslərin güzəştli şərtlərlə vaxtından əvvəl əmək pensiyasına çıxması çox yaxşı haldır. Müvafiq qanunvericilik aktında bu məsələnin əks olunması həmin kateqoriyadan olan şəxslərin pensiya hüququna əlçatanlığını artırır.

O qeyd etdi ki, hazırda təklif layihə şəklində olduğu üçün, orada əsasən hansı sahələrdə çalışanların nəzərdə tutulduğu haqda məlumatsızdır. "Layihə haqqında geniş məlumatım yoxdur. Yəqin Milli Məclisdə müzakirə ediləcək. Ümumiyyətlə, güzəştli şərtlərlə yaşa görə pensiya hüququ verən istehsalatların, işlərin, peşələrin, vəzifələrin və göstəricilərin siyahıları Nazirlər Kabineti tərəfindən təsdiqlənir. Əmək şəraiti xüsusilə zərərli və ağır olan işlər də həmin siyahı əsasında müəyyən olunur. Yeni layihədə əksini tapan xüsusilə zərərli və ağır işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla onlara yaşa görə əmək pensiyası hüququnun verilməsinin təsdiqlənməsi müsbət hal olardı. Çünki əvvəlki qərarda bəzi sərtliklər vardı. Amma yeni layihədə bu məsələnin yumşaldılmasının təklif edilməsi müsbət haldır. Bilirsiniz ki, xüsusilə zərərli və ağır işlərdə çalışan insanların vaxtından əvvəl əmək pensiyasına çıxmasının təmin edilməsi vacib məsələdir. Çünki burada o işin onların sağlamlığına vurduğu zərərlə də bağlı məsələlər var. Bu dəyişiklik Prezident tərəfindən təsdiqləndikdən sonra onunla bağlı daha ətraflı danışmaq olar" - deyə R.Həsənov vurğuladı.

*"Xüsusilə zərərli və ağır işlərdə çalışan insanların vaxtından əvvəl əmək pensiyasına çıxmasının təmin edilməsi vacib məsələdir"*

***İradə SARIYEVA***

# Ermənilərin Kann Festivalına təqdim etdikləri kino Azərbaycanın işğal olunmuş ərazilərində çəkilib - icma rəhbərinin etirazından əlavə nə edə bilərik...

***Elxan Cəfərov:** "Bizim bu məsələdə çıxış yolumuz dünyaya mədəniyyət faktoru ilə çıxmaq, yüksək səviyyəli filmlər çəkərək təbliğ etməkdir"*

**Ermənilər işğal altında olan Azərbaycan ərazilərində özbaşnalıqlarını davam etdirirlər. Torpaqlarımızı işğal etdikdən sonra burada yaratdıqları qondarma "DQR"i "müstəqil respublika" kimi beynəlxalq aləmə tanıtmaq üçün xarici dövlətrdəki erməni diasporunun dəstəyilə müxtəlif təbliğat işləri həyata keçirirlər.**

Əlbəttə, saxtakarlıq, yalan, riya üzərində köklənən bu təbliğata dünyanı inandırmaq mümkün olmasa da, onlar öz saxtakarlıqlarını davam etdirirlər.

Bildiyimiz kimi, son illər xaricdəki erməni diasporunun maliyyə yardımı ilə bəzi xarici kino şirkətləri, eləcə də erməni rejissorlar işğal altında olan Azərbaycan torpaqlarında bədii və sənədli filmlər çəkir, onu ayrı-ayrı beynəlxalq film festivallarına təqdim edirlər. Çox təəssüf ki, ermənilər bizim ərazilərimizdə, qədim şəhərlərimizdə çəkdikləri filmləri ən nüfuzlu beynəlxalq kino festivallarının qapısına qədər daşıya bilirlər. Hətta Kann Kino Festivalına da film təqdim etmək iddialarını gizlətmirlər. Ermənilər bu filmləri xüsusi plan əsasında çəkirlər.

Bilirik ki, ermənilərin Kann Festivalına təqdim olunmaq üçün çəkdikləri "Əgər külək olsa" (Si le vent tombe) filmi də bu qəbildəndir, onların çirkli təbliğatına hesablanıb.

Qeyd edək ki, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Kann Festivalının təşkilatçılarına etiraz məktubu göndərib. Məktubda Dağlıq Qarabağın azərbaycanlı icması ermənilərin Kann Festivalına təqdim olunmaq üçün çəkdikləri "Əgər külək olsa" filminin yayımlanmasına etirazı yer alıb. Qeyd olunub ki, sözügedən film Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qanunsuz olaraq çəkilib.

Məktubda vurğulanıb ki, filmdə göstərilən Xocalı aeroportu Azərbaycana məxsusdur və işğaldan sonra Ermənistan tərəfindən qanunsuz olaraq bərpa olunub. Eyni zamanda, festival təşkilatçılarına Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox insanın öz yurdundan didərgin düşməsi və bu insanların 30 ilə yaxındır öz evlərinə qayıda bilməməsi haqqında da məlumatlar yer alıb.

Sonda ədalətin bərpa olunmasına, münaqişənin həllində sülhyönümlü nəticə əldə etmək üçün festival təşkilatçıları tərəfindən səy göstəriləcəyinə ümid ifadə olunub.

Yeri gəlmişkən, Mədəniyyət Nazirliyi dəfələrlə Kann Festivalında Azərbaycan pavilyonu açıb, amma indiyədək bir dənə də olsun Qarabağ mövzusunda film təqdim etməyib. Ermənilərin bu qanunsuz hərəkətlərinin qarşısının alınmasında nazirliyin rolu böyük olmalı olduğu halda, təəssüf ki, biz bunu görə bilmirik. Halbuki, beynəlxalq qanunvericilik var və burada işğal altında olan ərazilərdə görülən istənilən işin qəbuledilməzliyi barədə aktlar var. Amma bizim nazirlik bu aktları rəhbər tutub beynəlxalq qurumlar qarşısında ermənilərin "kino oyunlarını" ifşa edə bilməyib. Kann Festivalına urvatlı bir film təqdim etməklə ermənilərin iç üzünü tamamilə açmaq olardı.

Bəzi hallarda, kinoya rəhbərlik edən adamlar deyirlər ki, mədəniyyət festivallarında siyasi mövzuda çəkilən filmlər qəbul edilmir. Belədisə, bəs onda ermənilərin saxtakarlıqla çəkdikləri filmlər o tədbirlərdə necə qəbul olunur? Əslində, suallar çoxdur, cavabını verməli olanlar isə susurlar.

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ermənilərin çəkdikləri məlum filmlə bağlı Kann Festivalına etiraz məktubu göndərib, bəs əlaqədar qurumlar və kino ictimaiyyəti nə etməlidir ki, işğal altında olan ərazilərimizdə çəkilən o mənfur film Kann Festivalında yayımlanmasın?

Tanınmış kinorejissor Elxan Cəfərov "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər tərəfindən işğal altında olan ərazilərimizdə film çəkilməsinə və onun Kann Festivalına təqdim edilməsinə münasibəti çox mənfidir. Bu halı pisləndiyini bildirən E.Cəfərovun sözlərinə görə, Azərbaycan haqlı tərəfdir və biz erməni təbliğatının qarşısını almaq üçün çox yüksək səviyyədə bədii filmlər çəkib dünyada yaymalı, nüfuzlu beynəlxalq kino festivallarında iştirak etməliyik. Bunun yalançı, saxta erməni təbliğatına böyük zərbə ola biləcəyini deyən E.Cəfərov hesab edir ki, bunsuz erməni təbliğatının qarşısını almaq mümkün deyil.

"Ermənilər birinci dəfə deyil ki, bizim işğal altında olan ərazilərimizdə bu cür filmlər çəkirlər. Bu gün ermənilər dünya qarşısına saxta "mədəniyyət faktoru" ilə çıxırlar. Halbuki, onların özünün heç bir mədəniyyəti yoxdur, musiqiləri də, təqdim etdikləri başqa mədəniyyət nümunələri də başqa xalqlardan oğurluqdur. Bilirsiniz ki, erməni diasporunun əlaqələri çox geniş inkişaf edib, onlar bundan istifadə edərək həyasızlıq göstərirlər və bu cür işlər görürlər. Onlar dünyada hər şeyə yalanla, yaltaqlıqla, riyakarlıqla, satqınçılıqla nail olurlar. Bizim bu məsələdə çıxış yolumuz dünyaya mədəniyyət faktoru ilə çıxmaq, yüksək səviyyəli filmlər çəkərək təbliğ etməkdir. Təəssüf ki, biz bunsuz nə qədər çalışsaq da, heç nəyə nail ola bilmərik. Ermənilər bizim düşmənimizdir və düşməni susdurmaq üçün dünyaya dəyərli filmlərlə çıxmalıyıq. Əlbəttə, ermənilərin bu şəkildə təbliğ edilməsini himayə edən dövlətlərin xüsusi siyasi maraqları var və onlar bir çox halda öz siyasi maraqlarını mədəniyyətlə təmin edir, öz mesajlarını mədəniyyət, kino vasitəsilə verirlər. Bizim güclü ordumuz var və bizə mane olan dövlətlər olmasa, tezliklə öz torpaqlarımızı işğaldan azad edə bilərik. Amma dünyanın müxtəlif dövlətlərinin bu məsələdə öz maraqları var və onlar bizə mane olurlar.

Dünya mədəni maraqlar yox, siyasi məqsədlər, maraqlar güdür. Biz bu gün çalışmalıyıq ki, Azərbaycanı böyük mədəniyyətə malik bir ölkə kimi tanıdaq. Dünya bizi tanımalıdır. Ermənilər az-çox özlərini pis mənada da olsa tanıdıblar. Amma biz ermənilər kimi xain, aldadıcı planlar quran xalq deyilik, bizim böyük mədəniyyətimiz var, daxili mədəniyyətə sahib olan qədim xalqıq. Dünya bilir ki, ermənilər xəyanətkardırlar. Biz öz mədəni dəyərlərimizi kino vasitəsilə təbliğ etməliyik. Öz xalqımızın mədəni dəyərlərini təbliğ etməliyik".




*"Mədəniyyət vacib ideoloji silahdır və biz bundan istifadə etməliyik"*

E.Cəfərov qeyd etdi ki, kino, mədəniyyət böyük ideoloji silahdır, biz bu silahdan istifadə etməyi bacarmalıyıq və dünyaya çıxıb ermənilərin yalançı təbliğatının qarşısını mədəniyyət faktoru ilə almalıyıq. "Bilirsiniz, bunun üçün gərək ölkəmizdə mədəniyyətə yalnız əyləncə vasitəsi kimi baxılmasın. Təəssüf ki, bizdə hələ də mədəniyyətə əyləncə vasitəsi kimi yanaşılır. Biz əvvəlcə daxilimizdə mədəniyyətimizi əyləncəlikdən çıxarmalıyıq ki, sonra o mədəniyyəti dünyaya çıxara bilək. Mədəniyyət vacib ideoloji silahdır və biz bundan istifadə etməliyik. Sözümün canı odur ki, ermənilərin hərəkətini pisləmək, onlara etirazımızı bildirmək kifayət deyil. Çıxış yolumuz bizim öz yüksək səviyyəli filmlərimizi dünyaya çıxarmaqdır. Mütləq deyil ki, o filmlər Dağlıq Qarabağ mövzusunda olsun, başqa mövzularda da ola bilər.

Bizim bu gün iqtisadiyyatımız inkişaf edib, gözəl xarici siyasət aparırıq. Bunlar çox gözəldir. Amma mədəniyyət faktorunu da yüksək səviyyədə təbliğ etməliyik. Bu gün bizim Kann Festivalına təcili film çəkib çıxarmağımız mümkün deyil, amma bu istiqamətdə köklü, fundamental işlər görməliyik. Dünya üçün Azərbaycan vətən deyil, bizim üçün vətəndir. Biz isə vətənimizin adını daha yüksək səviyyədə mədəniyyətlə, kino ilə ucaltmalıyıq" - deyə E.Cəfərov vurğuladı.

***İradə SARIYEVA***

# Həftəsonu növbəti qayda sərtləşməsində fermerlər üçün ayrıca güzəşt - aqrar sektor ziyan görməyəcək...

**Məlum olduğu kimi, Nazirlər Kabineti "Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin, Abşeron, Salyan, Kürdəmir, Yevlax və İsmayıllı rayonlarının ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 9 iyun tarixli, 196 nömrəli qərarında dəyişiklik edib.**

*"...bunlara əməl olunmasa, aqrar sektorda məhsul çatışmazlığı yaşanar"*

Dəyişikliyə əsasən, qeyd olunan ərazilər üzrə sərt karantin günlərində fəaliyyət göstərəcək iş və xidmət sahələri artırılıb. Fəaliyyət göstərəcək sahələrdən biri də rayonlarda kənd təsərrüfatı məhsullarının toplanması, habelə növbəli suvarma, təxirəsalınmaz baytarlıq və bitki mühafizə xidmətləridir.

Qeyd edək ki, bu xidmətlə fəaliyyət göstərən fiziki şəxslərin hərəkətinə olduğu yer üzrə yerli icra hakimiyyəti orqanlarının ərazi nümayəndəliklərinin arayışı əsasında yol verilir. Fermer tərəfindən müvafiq arayış xüsusi karantin rejiminin sərtləşdirilməsinin nəzərdə tutulduğu günədək əldə edilir və arayışda fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, hərəkətinə icazə verilən ərazi və arayışın qüvvədə olduğu müddət göstəriləcək.

Sərt karantin günlərində fermerlər üçün ediləcək güzəştin əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, pandemiya dövründə kənd təsərrüfatı sektoru ilə məşğul olanlara güzəştin şamil olunması aqrar sahənin inkişaf etməsinə səbəb olacaq: "Kənd təsərrüfatı elə bir sahədir ki, bu sektorın istənilən sahəsində fasilə ola bilməz. Bitkiçilik, heyvandarlıq və əkinçilik sahəsində daim müəyyən prosedurlar həyata keçirilir.

***Ruslan Atakişiyev:** "Aqrar sektorda fasilə verilərsə, kənd təsərrüfatında müəyyən problemlər yaşana bilər"*




**Bu sahədə fasilə verilərsə, kənd təsərrüfatında müəyyən problemlər yaşana bilər. Əkinin suvarılması, məhsulun yığılması, toplanması, elə meyvələr var ki, vaxtında toplanmalıdır. Bunlara əməl olunmasa, aqrar sektorda məhsulun çatışmazlığı yaşanar. Bu kimi problemlərin yaşanmaması üçün aqrar sektorla məşğul olanlara güzəşt edilməlidir".**

***Günel CƏLİLOVA***

# Bəzi rayonlarda əvvəlki qaydada yas mərasimləri kütləvi olaraq keçirilir - məsuliyyətsizliyə son veriləcəkmi...

**Koronavirus pandemiyasının respublika ərazisində geniş yayılmasının, daha çox insanın bu virusa yoluxmasının qarşısının alınması üçün ölkəmizdə tətbiq edilən karantin rejimi çərçivəsində toyların, nişan və ad günlərinin keçirilməsi tamamilə qadağan edilib, yas mərasimlərinin isə tamamilə məhdudlaşdırılmış şəkildə keçirilməsinə icazə verilib.**



Yəni rəhmətə getmiş şəxsin yas mərasimində yalnız onun ailə üzvləri və yaxın qohumları iştirak edə bilər. Burada ehsan məclislərinin isə tamamilə yığışdırıldığı, eləcə də kütləvi iştirakın tam qadağan edildiyi məlumdur.

Onu da bildirək ki, yas yerlərində kütləvi iştirak virusun daha sürətlə yayılmasına şərait yaradır. Rəsmi qurumlar da dəfələrlə bəyan ediblər ki, yas yerləri virusun yayılması üçün münbit şəraitə malikdir. Hətta bir çox insanın yas yerlərində virusa tutulduğu da rəsmən təsdiqlənib.

Çox təəssüf ki, ictimaiyyətin bəzi üzvləri məsuliyyətsizlik göstərərək, bu vacib məsələyə əhəmiyyət vermək istəmirlər. Vətəndaş məsuliyyətsizliyi isə bu prosesin daha da sürətlənməsinə səbəb olur.

Məlumatlara görə, bu gün pandemiyanin geniş yayıldığı rayonlarda yaş məclisləri köhnə qaydada keçir, ailə üzvləri özləri kütləviliyi təmin edir. Yəni özləri yas mərasiminə daha çox insanın qatılmasına şərait yaradır, ehsan verirlər. Hətta bəzi adamların dediyinə görə, pandemiyaya görə yas yerinə qatılmaq istəməyən həmkəndlilərindən də inciyir, onlara

***Əhməd Qəşəmoğlu:** "Bu insanlara söz, maarifləndirmə işi təsir etmirsə, onda inzibati metodları gücləndirmək lazımdır"*

"sənin atanın yasına gəlmişəm, sən niyə gəlməmisən" ismarıcı da göndərirlər.

Dövlət qərar verir, amma məsuliyyətsiz vətəndaşlar bu qərara əməl etmək istəmirlər. Ekspertlər qeyd edirlər ki, bu, inzibati yolla qarşısı alınmayan məsələdir və yaxşı olar ki, əlaqədar qurumlar, QHT-lər, xüsusən də din xadimləri bu sahədə maarifçilik işləri aparsınlar. Yəni ölünü son mənzilə yola salan din xadimi ölü sahibləri ilə maarifçilik söhbətləri aparmalı və onları bu yoldan çəkindirməlidir.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, vətəndaş məsuliyyətsizliyinin qarşısının alınması üçün təxirə salınmadan tədbirlər görülməlidir. Ə.Qəşəmoğlu hesab edir ki, bəzi rayon və kəndlərdə yas mərasimlərinin kütləvi təşkilinin qarşısının alınması üçün əsas məsələ inzibati yoldur: "Mən bunu dəfələrlə mətbuat üçün demişəm, yenə də deyirəm. Əgər elə bir proses, hadisə varsa ki, o, xalqın, dövlətin taleyi üçün mühümdür və orada maarifləndirmə işi nəticə vermirsə, bu zaman inzibati metodlar qaçılmazdır. Çünki ortada xalqın taleyi dayanır. Bəli, bizim insanlarda bu cür məsuliyyətsizlik halları var. Dünən Naxçıvanda mənim qohumlarımdan bir nəfər rəhmətə gedib. Rayona zəng vururam, bacım deyir

*"Bu, ölkəmiz üçün taleyüklü bir məsələdir və burada vətəndaş məsuliyyətsizliyinə son qoyulmalıdır"*

Şahbuza yasa getmişdik, yasda adam həddən artıq çox idi, ölü sahibi hamıya "sağ ol, nə yaxşı gəldin" deyib razılıq etdi. Əslində, ölü sahibi deməli idi ki, gəlməyin. Bizim camaata hələ çatmayıb ki, ölkədə nə baş verir, virus nə qədər təhlükəlidir. Bu elə bir məsələ deyil ki, "mənim bir canım var, onu da filankəsə qurban verərəm" deyəsən. Amma bu, bir nəfərlə bağlı yox, bütün xalqın taleyi, sağlamlığı ilə bağlı məsələdir. Burada hamı cavabdehlik daşıyır. Bir nəfərin yoluxması 50-60, sona isə daha çox adamın virusa yoluxması deməkdir. Bu, ölkəmiz üçün taleyüklü bir məsələdir və burada vətəndaş məsuliyyətsizliyinə son qoyulmalıdır. Belə vəziyyətdə kimlərsə nadanlıq edərək köhnə qayda üzrə kütləvi yas mərasimi keçirirsə, bu yolverilməzdir. Bunun nadanlıqdan başqa adı yoxdur. Bu insanlara söz, maarifləndirmə işi təsir etmirsə, onda inzibati metodları gücləndirmək lazımdır. Amma bunu da elə şəkildə həyata keçirərkən mənəvi və digər tərəflər nəzərə alınmalıdır. Onu elə etmək lazımdır ki, məsələ öz həllini tapsın. Bununla bağlı cərimələr də tətbiq etmək, yaxud camaatla söhbətlər də aparmaq olar" - deyə Ə.Qəşəmoğlu qeyd etdi.

***İradə SARIYEVA***

№ 94 (4225) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

13 İYUN 2020-ci il

www.baki-xeber.com



# Süni intellektin də yuxuya ehtiyacı var imiş

**Son zamanlar gündəmdə olan süni intellektin də yuxuya ehtiyacı olduğu üzə çıxıb.**

Alimlər onun neyro şəbəkəsinin stabil işləməsi üçün insan beynində olduğu kimi, periodik olaraq istirahətə və "yuxuya getməyə" tələbatı olduğunu aşkarlayıblar. "Medicina.az" bildirir ki, ABŞ-n Milli kompyuter proqramları laboratoriyasının mütəxəssisləri tədqiqat aparıblar. Onlar süni intellektin neyro şəbəkəsinin bioloji sistemləri öyrənərkən iş prosesini izləyib və müşahidə ediblər ki, fasiləsiz perioddan sonra mənimsəmə azalır. Onlar neyro şəbəkəsinin işini stabilləşdirmək üçün müxtəlif metodlar sınayıblar. Səs dalğaları ilə eksperiment ediblər. Ən yaxşı nəticə insan beynində dərin yuxu fazasında olan zaman yaranan dalğalarla əldə olunub. "Sanki süni intellektin neyro şəbəkəsi yaxşı, dərin gecə yuxusuna bərabər effekt aldı, ondan sonra onun işində stabilləşmə qeydə alındı" - deyə müəlliflər bildirirlər.

## Yeni texnologiya insan saçından "OLED" ekranlar yaratmağa imkan verir

**Avstraliyanın Kvinslend Texnologiya Universitetinin tədqiqatçılar qrupu insan saçından "OLED" displeylər hazırlayıb.**

"İctnews.az" bildirir ki, alimlərin sözlərinə görə, karbon və hidrogenlə zəngin saçlar onlardan işıqşüalandırıcı hissəciklər yaratmaq üçün istifadəyə imkan verir. Texnologiyanın əsasını yerli bərbərdə saç tullantılarının toplanması təşkil edir. Bundan sonra saç 240 dərəcə temperaturda emal edilir və yandırılır. Yaranan karbon, hidrogen və azot 10 nanometr ölçüsündə karbon nanodotlara çevrilir. Əldə olunan material polimer vasitəsilə yayıldıqdan sonra ondan "OLED" displeylərdə aktiv qat kimi istifadə mümkün olur. Zəif gərginlik ötürülən zaman nanodotlar mavi rəng verməyə başlayırlar. Eksperimentin nəticələrinə görə fikirlərini bölüşən tədqiqatçılar qeyd ediblər ki, insan saçından karbon nöqtələr əsasında üzvi işıqşüalandırıcı qurğular intellektual qablaşdırma üçün istifadə edilə bilər. Onların sözlərinə görə, materialın zəhərli olmaması səbəbindən onlar az işıq mənbəyinin tələb olunduğu yerlərdə, məsələn, lövhələrdə, "ağıllı" sarğılarda və tibbi cihazlarda tətbiq oluna bilər. Həmçinin, vurğulanır ki, insan saçını xüsusi gözəllik salonlarında mövcud olan qoyun və heyvanların yunu ilə əvəzləmək mümkündür. Alimlərin fikrincə, parlaqlıq səviyyəsinin az olmasına baxmayaraq, texnologiya perspektivlidir. Belə ekranlar daşınan elektronika və s. istifadə oluna bilər.

## İstanbulun mərkəzində tarixi abidə tapılıb

**İstanbulun mərkəzi hissələrindən biri olan Beşiktaş rayonunun Ortaköy Meydanında tarixi abidə tapılıb.**

AZƏRTAC bildirir ki, abidə İstanbul Su və Kanalizasiya İdarəsi tərəfindən aparılan qazıntı zamanı meydana çıxıb. Bölgədə aparılan qazıntı işləri dayandırılıb. Əraziyə mütəxəssislər cəlb olunub.

## İnsanları daşımaq üçün dron istehsalına başlandı

**"Ehang 184" dünyanın tək sərnişin daşıyan yeganə dronudur. "Ted.az" bildirir ki, Çində istehsal olunan "Ehang 184" maksimum 100 kiloqram ağırlığında yük daşıya bilir.**

Uzaqdan idarə olunan pilotsuz təyyarənin üzərində bir kabin yerləşdirilib. Dron yerə paralel işləyən pərvanələr vasitəsilə idarə olunur. Sərnişin daşıya bilən lik pilotsuz uçuş aparatı gücünü elektrik enerjisindən alır. Havada 2 saat elektrik enerjisi saxlayır və dəniz səviyyəsində uçarkən 23 dəqiqə havada qala bilir. Pilotsuz təyyarənin maksimal sürəti saatda 100 kilometrdir.




## Elan

Şükürova Mətanət Tarxan qızının adına, Nərimanov rayonu, 1-ci C.Hacıbəyli döngəsi, ev 22, fərdi yaşayış sahəsinə 26.01.2018-ci il tarixdə verilmiş çıxarış (seriya RX N1219992) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Platxanov Hüseynbala Əli Heydər oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş qəsəbəsində yerləşən 2226 a saylı bağa verilmiş 23832 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.

İsrafilova Lalə Ehtiram qızının adına şəxsiyyət vəsiqəsi, xarici pasport, sürücülük vəsiqəsi, boşanma haqqında şəhadətnamə, doğum şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Yolçuyev Rüstəm Həsənağa oğlunun adına, Quba rayonu, 2-ci Nügədi kəndində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı (JN-2108 kod 30320018) itdiyi üçün etibarsız sayılır.

Səfərova Natella Qunduz qızının adına, Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 2-ci yaşayış massivi, 9-cu döngə, ev 168 ünvanının qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Həsənov Məmmədəli Əli oğlunun adına, Sabirabad rayonu, Sarxanbəyli kəndində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamələr (JN-86A, JN-86B) itdiyi üçün etibarsız sayılır.

Xəlilov Hikmət Əjdər oğlunun adına, Vəkillər Kollegiyası tərəfindən 02.05.2018-ci il tarixdə verilmiş 993-VK nömrəli vəkil vəsiqəsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Uğurlar əldə etmək üçün ifrat dərəcədə səylərə ehtiyac yoxdur. Praktiki olaraq bütün problemlərin öhdəsindən gələ bilərsiniz. Bəyəndiyiniz, sərfəli və mənfəətli saydığınız ideyaları həyata keçirməyə çalışın.



**Buğa** - Yalnız dəqiq və səlis fəaliyyət planı hazırlayandan sonra aktiv işlərə başlayın. Bütün detalları fikirləşin, zəif və güclü yönləri nəzərə alın. Tələskənliyə yol verməyin. Uğurunuza inanın.



**Əkizlər** - Təxribatlara uymayın. Bu gün yaxın ətrafınızdakı insanlar əsəblərinizlə oynayacaqlar. Sakitliyin heç olmasa görüntüsünə nail olmaq böyük səylər və zəhmət tələb edir.



**Xərçəng** - Səbrli və inadkar olun. Sadə olmayan günü itkilərsiz başa vurmağa çalışın. İşlərinizdə irəliləyişlərə nail olmaq istəyirsinizsə, sayıq, sərvaxt davranmaq gərəkdir. Gələcək qələbələrin rəhni indi qoyulur.



**Şir** - Gün uğurlu başlanacaq. Günün ilk yarısında qətiyyətli və iradəli olsanız, ciddi irəliləyişlərə nail ola bilərsiniz. Yaxınlarınızla ünsiyyətləri aktivləşdirin, səmimi və qayğıkeş olun.



**Qız** - Çox əlverişli və uğurlu gündür. Müsbət təmayüllərin təsiri güclü olduğundan ciddi səylərə əl atmadan uğura nail ola bilərsiniz. Yaxın ətrafınızdakı insanlar adi günlərlə müqayisədə sizə yardım istəyi ilə daha çox müraciət edəcəklər.



**Tərəzi** - Pis gün deyil. Hər şey istədiyiniz kimi olmasa da, tövrünüzü pozmayın. Sakit və təmkinli olun. Yaxın ətrafınızdakı insanların bədbinlikdən qurtulmaları üçün əlinizdən gələni edin.



**Əqrəb** - Danışıqlarla müzakirələrdə çox vaxt keçirməyin. Belə müzakirələr xoş olsa da, mənasızdır. Mühüm məsələni sanki təsadüfən yada salın. Faydalı məlumat əldə etməyə çalışın.



**Oxatan** - Yaşam sizə çox asan, asudə gəlməsin. Həyatı daha da çətinləşdirəcək süni problemlər yaratmayın. Ünsiyyətdə xasiyyətinizin ən pis yönlərini sanki bilərəkdən nümayiş etdirməyin.



**Oğlaq** - Məhsuldar gündür. Sizin üçün önəmli, amma mürəkkəb işə başlaya bilərsiniz. Yaşam enerjisi və qüvvələriniz ən çətin işin öhdəsindən gəlməyə imkan verir. Etibarlı dostlar və müttəfiqlər sizi tək qoymayacaqlar.



**Dolça** - Nə istədiyinizi dəqiqləşdirin. Sizi dilə tutsalar da, kənar işlərə razılaşmayın. Yanındakı insanlarla manipulyasiyalar etmək və onlardan öz maraqları üçün faydalanmağa adət edən insanlara sərt cavab verin.



**Balıqlar** - Səmimi, qayğıkeş olmağa çalışın. Belə davranış yaxın ətrafınızdakı insanları laqeyd qoymayacaq. Yeni tanışlıqlar üçün pis zaman deyil. Yaşamınızda sonradan önəmli rol oynayacaq romantik münasibətlər yarana bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "WhatsApp"da daha bir yenilik...



**"WhatsApp" messencerində yeni funksiya yaradılacaq. "Trend"in "Lenta.ru"ya istinadən verdiyi xəbərə görə, bu barədə "WABetaInfo" portalı məlumat yayıb.**

Bildirilir ki, yeni funksiya istifadəçilərə mesajları tarixə görə axtarmağa imkan verəcək. Hazırda messencerdə axtarış funksiyası mövcuddur, lakin istifadəçilər müəyyən bir tarixdə göndərilən və ya qəbul edilən mesajı tapmaqda çətinlik çəkirlər.

Yeni funksiya işə düşdükdən sonra istifadəçilər mesajın göndərilmə və ya qəbul tarixini yazaraq istədikləri məlumatı tez bir zamanda tapa biləcəklər. Qeyd edilir ki, hazırda yeni funksiya alfa-test mərhələsindədir. Yeni funksiyanın işə düşəcəyi tarix hələ ki, məlum deyil.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.